QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*“SƏS” qəzeti mənim üçün ən aziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 032 (5504) 17 **fevral** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bu il ölkə iqtisadiyyatına 15 milyard dollar sərmayə qoyuluşu gözlənilir



Səh 2

## YAP seçki kampaniyasını uğurla davam etdirir



3

## Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın ilk iclası keçirilib



3

## Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasına uğurla start verdi

6

## “Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması şəraitində sülhdən danışması açıq riyakarlıqdır”



5

## Qabil Orucov: “MSK çox ciddi addımlar atır”



4

## İtaliya KİV-ləri Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısından yazır



4

12

## Mərkəz sədri: “Orduda ermənilər bir-birini qırır”



13

## “Dağıdıcı müxalif ünsürlərin xaricdən maliyyə asılılığı var”



16

## Kamran Quliyev “Neftçi”nin yeni prezidenti təyin edilib



# Bu il ölkə iqtisadiyyatına 15 milyard dollar sərmayə qoyuluşu gözlənilir

Dünyadakı mürəkkəb sosial-iqtisadi problemlər fonunda Azərbaycanda təhlükəsizlik, əlverişli biznes və investisiya mühiti istənilən layihənin gerçəkləşməsinə təminat verir. Məhz 2017-ci il Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə makroiqtisadi sabitlik və maliyyə dayanıqlılığının təmin edilməsi, investisiyaların yatırılması və iqtisadi artımın bərpa olunması üçün münbit şəraitin yaradılması istiqamətində görülən işlər və əldə edilən nailiyyətlər baxımından da əlamətdar olub.



Dünya iqtisadiyyatında baş verən mənfi tendensiyalar, demək olar ki, əksər ölkələrdə sərmayə qoyuluşunu azaldıb. Ancaq Azərbaycandakı mövcud investisiya imkanları və Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılan əlverişli biznes mühiti yerli sahibkarlarla yanaşı, xarici investorları da ölkəmizə cəlb edir. Dövlət başçısının tapşırıqlarına əsasən, investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərin nəticəsidir ki, Azərbaycana sərmayə qoyan şirkətlərin sayı ilə yanaşı, onların coğrafiyası da getdikcə genişlənir. İnvestorlar



ancaq sabit olan ölkəyə sərmayə qoymaqda maraqlıdırlar. Elə bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına 2004-2017-ci illərdə 225 milyard dollar həcmində investisiya qoyulub. Bu müddətdə ölkə iqtisadiyyatına yatırılan xarici investisiyanın həcmi isə 107,2 milyard dollar təşkil edib.

Öncə, ötən ilin statistik göstəricilərinə nəzər yetirək. Keçən il ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Xarici ticarət dövriyyəsi 2017-ci ilin ilk 11 ayında 21,8 milyard ABŞ dolları təşkil edib, əmtəə ixracı isə, 19 faiz artaraq, 14 milyard dolları ötələyib.

2017-ci ilin dövlət büdcəsinin vəsaiti hesabına investisiya xərclərinə 2 milyard 690 milyon manat vəsait yönəldilməklə, nəzərdə tutulan bütün layihələrin maliyyələşdirilməsi təmin olunub. Valyuta ehtiyatlarımız 4,5 milyard dollar artaraq, 42 milyard dollar təşkil edib. Adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə, Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev vurğulayıb ki, ölkə iqtisadiyyatına 14,6 milyard dollarlıq sərmayə qoyuluşu çox gözəl göstəricidir. Bu, onu göstərir ki, həm yerli, həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar: "Bu, eyni zamanda, qeyd etdiyim sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə xarici ölkələrə vəsait qoymaq, bir çox investorlar tərəfindən, o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək, hesab edirəm ki, böyük nailiyyətdir".

Azərbaycan hazırda regional lider, bir sıra qlobal məsələlərdə mühüm geosiyasi aktor, habelə, beynəlxalq imici durmadan artan nüfuzlu ölkədir. Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP) "Cənub Qaz Dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir.

Azərbaycanın təşəbbüskarı olduğu və davam edən regional bağlılıq layihələri, o cümlədən, Bakı-Tbilisi-Qars dəmir yolu, Yeni Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, Azərbaycan ilə İran arasında dəmir yolu şəbəkələrini əlaqələndirən Xəzər dənizi sahilindəki Logistik Mərkəz kimi strateji təməl komponentləri Şərq-Qərb və Şimal-Cənub istiqamətləri üzrə çoxtərəfli imkanlara malik transregional infrastrukturun inkişafında keyfiyyətcə yeni nailiyyətləri nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi, bütün bu layihələr, bir daha sübut edir ki, Azərbaycan son 15 il ərzində böyük və şərəfli yol keçib. İri sərmayəçi kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici ölkələrin iqtisadiyyatına yatırılan investisiyaların həcminə görə, bu gün MDB-də aparıcı dövlətlərdən birinə çevrilib. Dünyanın nüfuzlu iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarında respublikamız bölgədə investisiyaların coğrafi mərkəzinə çevrilən ölkə kimi səciyyələndirilir.

Nazirlər Kabinetinin, sonuncu iclasında dövlətimizin başçısı bu məsələyə toxunaraq vurğulayıb: "İqtisadi potensialımız siyasi gücümüzü artırır, bölgədəki vəziyyətimizi möhkəmləndirir, imkan verir ki, ölkəmizin uzunmüddətli strategiyasını düzgün müəyyənləşdirək və onu icra edək. "Cənub Qaz Dəhlizi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, "Şimal-Cənub" layihələrinin və digər önəmli layihələrin maliyyələşməsində, əlbəttə ki, bizim iqtisadi gücümüz əsas rol oynamışdır".

Bütün bu uğurlar, əlbəttə ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə qazandığı yüksək etimad sayəsində reallaşıb. Ona görə də, əminliklə söyləyə bilərik ki, bu il də ölkə iqtisadiyyatına sərmayə qoyuluşu əvvəlki ilin səviyyəsində olacaq. Aparılan hesablamalara görə, bu il ölkə iqtisadiyyatına təxminən 15 milyard dollar səviyyəsində sərmayə qoyuluşu gözlənilir. Dövlət başçısı qeyd edib ki, bu rəqəm arta da bilər. Çünki Azərbaycan bu gün dünya miqyasında sərmayə qoyuluşu üçün çox cəlbedici ölkəyə çevrilib. İqtisadi sabitlik, valyuta ehtiyatlarımız, siyasi sabitlik və Azərbaycanda həyata keçirilən önəmli layihələrin kommersiya cəlbediciliyi xarici sərmayənin cəlb edilməsində ölkəmizə kömək göstərəcək: "Əminəm ki, bu il ölkə iqtisadiyyatı öz inkişaf yolu ilə gedəcək. İl ərzində bir çox önəmli layihələrin icrası nəzərdə tutulur. Əlbəttə, biz çalışmalıyıq ki, 2018-ci ildə makroiqtisadi vəziyyət sabit olsun. Mən şübhə etmirəm ki, belə də olacaq. Makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir. Keçən ilin son aylarında makroiqtisadi vəziyyət sabitləşmişdir, inflyasiyanın səviyyəsi aşağı idi. Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir".

***"Səs" Analitik Qrupu***

# YAP seçki kampaniyasını uğurla davam etdirir

*"2018-ci il fevral ayının 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirildi və qurultayda cari ilin aprel ayının 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərində partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edildi.*

Fevralın 9-da isə Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq müvafiq sənədlər hazırlanaraq Mərkəzi Seçki Komissiyasına təqdim edildi". Bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, partiyanın prezident seçkilərində səlahiyyətli nümayəndəsi Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, MSK Seçki Məcəlləsinin 54-cü maddəsinin tələblərinə müvafiq olaraq 5 gün müddətində sənədlərin Konstitusiyaya və Seçki Məcəlləsinə uyğun olmasını yoxladıqdan sonra müvafiq qərar qəbul edib: "Mərkəzi Seçki Komissiyasının fevralın 14-də keçirilmiş iclasında Seçki Məcəlləsinin 54.9 maddəsinə uyğun olaraq 2018-ci il aprelin 11-ə təyin edilmiş



Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi təsdiq edilib. Fevralın 15-də MSK-nın qərarı dərc ediləcək qüvvəyə mindi və Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsinə namizədin müdafiəsi üçün 900 ədəd (45 min seçici imzasını nəzərdə tutan) imza vərəqləri təqdim olundu. Seçki Məcəlləsinə əsasən, hər bir namizəd 40 mindən az olmamaq şərtilə seçici imzası toplamalıdır. İmzalar 125 seçki dairəsinin ən az 60-nı əhatə etməli və seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplanmalıdır. İmza toplayanların hüquq və vəzifələri Seçki Məcəlləsində öz əksini tapıb. İmza toplayan şəxslərin yaşının 18-dən aşağı olmaması, seçki hüququna malik olması, hərbi, dövlət qulluqçusu olmaması, hüquq mühafizə və bələdiyyə orqanlarında təmsil olunmaması kimi tələblər Seçki Məcəlləsində əks olunub".

YAP-ın səlahiyyətli nümayəndəsi əlavə edib ki, MSK tərəfindən hər bir namizəd üçün 5 min əlavə imzanı nəzərdə tutan imza vərəqələri verilir ki, toplanan 40 min seçici imzasında hər hansı pozuntular qeydə alınarsa, həmin imzaların əvəz olunması imkanı mövcud olsun: "Bu, bir daha Seçki Məcəlləsinin demokratikliyini və hər bir namizədə bərabər şərait yaradıldığını göstərir. Təbii ki, YAP geniş imkanlara və yüksək nüfuza malikdir, o cümlədən əhalinin mütləq əksəriyyəti partiyamızın namizədini dəstəkləyir. Buna görə partiyamız tərəfindən 1 milyondan artıq imza toplana bilər, lakin MSK tərəfindən hər bir namizəd üçün bərabər sayda imza vərəqi nəzərdə tutulub".

"Partiyamız tərəfindən imzatoplama ilə bağlı xeyli hazırlıq işləri görülüb, imza toplayacaq şəxslər müəyyən olunub, onlar üçün treninqlər keçirilib, Seçki Məcəlləsində imza toplayan şəxslərin hüquq və vəzifələrinə dair əks olunmuş maddələri çıxarış - çap şəklində imzatoplayanlara təqdim etmişik. Yeni imzatoplayanlara müvafiq təlimatlar verilib və Seçki Məcəlləsinin tələblərinə riayət etmələri ciddi şəkildə tapşırılıb",-deyə Siyavuş Novruzov vurğulayıb.

YAP-ın səlahiyyətli nümayəndəsi qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu gündən etibarən imzatoplama kampaniyasına başlayıb: "1 nəfər imzatoplayanın 50 seçici imzası toplamasını nəzərdə tutmuşuq. Kampaniyaya 1000 nəfər imzatoplayan şəxs cəlb olunub, onlardan 900 nəfəri aktiv şəkildə imza toplayacaq, 100 nəfər isə köməklik göstərəcək. YAP öz ənənəsinə uyğun olaraq mövcud 125 dairənin hər birinin ərazisindən 100-dən az olmamaq şərtilə tələb edilən sayda imza toplamağı planlaşdırıb. YAP-ın 84 rayon və şəhər seçki qərargahları fəaliyyət göstərir. Hər bir qərargah üzvünün sayı 11 nəfərdən 19 nəfərə qədərdir ki, buraya rayon və şəhər təşkilatlarının sədrləri, fəallar və həmin ərazindən seçilmiş və partiyamızın üzvü olan millət vəkilləri daxildir. Onlar bu kampaniyada aktiv şəkildə iştirak edirlər. YAP partiyamızın Sədri, prezidentliyə namizəd cənab İlham Əliyevin müdafiəsi üçün aparılan imzatoplama kampaniyası ilə bağlı ictimaiyyəti mütəmadi şəkildə məlumatlandıracaq".

# Fransa mətbuatı Xocalı soyqırımından yazır



"atlantico
UN VENT NOUVEAU SUR L'INFO
Mercredi 14

ACCUEIL | ATLANTICO EDITIONS | DÉCRYPTAGE | PÉPITES | DOSSIERS | RENDEZ-VOUS | PÉPITES VI

2017, l'odyssée de la fin du monde d'avant | CULTURE | Best of Atlantico 2017 | Atlantico Business

Paroles
Publié le 14 Février 2018

## Haut-Karabagh : 26 ans après, le silence étourdissant autour du massacre de Khojaly

**Cela fait désormais vingt-six ans que la ville de Khojaly - occupé et totalement détruite par les forces armées de l'Arménie et qui impliquait également le 366ème Régiment de l'armée soviétiq de l'époque - honore les 613 Azerbaidjanais, dont 63 enfants et 107 femmes qui ont été tués, da la nuit du 25 au 26 février 1992.**

RSS

Je m'abonne à partir de 4.90€

Ajouter au classeur | Suivre ce contributeur | Lecture zen | A+ A-

1 2 3 PAGE SUIVANTE

Emmanuel Dupuy

Emmanuel Dupuy est

*Cela fait désormais vingt-six ans que la ville de Khojaly - occupé et totalement détruite les forces armées de l'Arménie et qui impliquait également le 366ème Régiment de l'ar soviétique de l'époque - honore les 613 Azerbaidjanais, dont 63 enfants et 107 femmes ont été tués, dans la nuit du 25 au 26 février 1992. Malgré le temps qui passe, personne particulier, les responsables politiques français, européens et mondiaux ne se sont expr clairement et concrètement sur ce tragique épisode, qui demeure le plus sanglant du co du Haut Karabagh entre l'Arménie et l'Azerbaidjan. Heureusement, face à ce silence, il encore des hommes de culture et de lettre - journaliste-photographe, compositeur et pe*

utilisation des cookies qui nous permettent de vous proposer des services

Fransanın www.atlantico.fr portalında "Dağlıq Qarabağ: 26 il sonra Xocalı kütləvi qırğını ilə bağlı qulaqbatırıcı sükut" adlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə 26 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni silahlı qüvvələrinin 366-cı rus hərbi alayı ilə birlikdə 63-ü uşaq, 107-si qadın olmaqla 613 Azərbaycanlını qətlə yetirdiyi bildirilir.

Fransa, eləcə də Avropa və dünya siyasətçilərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən qanlı səhifəsi olan Xocalı soyqırımı ilə bağlı mövqelərini açıq və qəti şəkildə bəyan etdikləri qeyd olunub. Yaradıcılıqlarında Xocalı soyqırımına toxunmuş üç fransız - fotoqraf-jurnalist Reza Deqati, bəstəkar Pyer Tilua və rəssam Reno Baltzinger faciə ilə bağlı təəssüratlarını bölüşüblər.

Fotoqraf-jurnalist Reza Deqati Xocalı soyqırımı törədiləndə Ağdam və Şuşa şəhərlərində olmasından, yaxınlarından xəbər gözləyən insanlarla görüşündən, Xocalıda ermənilər tərəfindən qətlə yetirilmiş insanların cəsədlərinə işgəncə verilməsindən, onların təhqir edilməsindən danışıb. Gördüyü reallıqları fotoları vasitəsilə olduğu kimi beynəlxalq ictimaiyyətə çatdırmaq niyyətindən söhbət açıb. Fransalı bəstəkar Pyer Tilua ölkəmizə səfərindən, Xocalı soyqırımı ilə bağlı eşitdiklərindən danışaraq, bu faciənin qurbanlarının xatirəsinə bəstələdiyi "Khodjaly 613" musiqi əsərini qeyd edib. Faciə ilə bağlı sükutu pozmağa, musiqi vasitəsilə həqiqəti ictimaiyyətə çatdırmağa çalışdığını bildirib. Rəssam Reno Baltzinger Xocalı soyqırımının məqsədli şəkildə törədildiyini, mətbuatın bu faciə ilə bağlı bilərəkdən susduğunu deyərək, Xocalı soyqırımına 50-yə qədər əsər həsr etdiyini vurğulayıb. Xocalı kolleksiyasındakı əsərlərini Fransanın sabiq mədəniyyət naziri Oreli Filipettiyə təqdim etdiyini diqqətə çatdırıb. Xocalı cinayətinin cəzasız qalmasının ədalətsiz olduğunu bildirən rəssam böyük "Ağ əsər"i ilə Xocalı kolleksiyasını tamamladığını vurğulayıb. Həmin əsərin Fransada və Bakıda Heydər Əliyev Mərkəzində nümayiş etdirildiyini diqqətə çatdırıb.



## Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın ilk iclası keçirilib

Fevralın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın ilk iclası keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.

Komitə sədri Mübariz Qurbanlı deyib ki, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət sayəsində Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti genişlənib, Qeyri-Hökumət Təşkilatları dövlət idarəçiliyi və qanun yaradıcılığı prosesinin iştirakçısına çevriliblər. Qeyd edilib ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda da ictimai iştirakçılıqla bağlı qarşıya yeni vəzifələr qoyulub.

DQİDK-ın qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıran Mübariz Qurbanlı Komitə yanında yaradılan İctimai Şuranın bu sahədə atılan növbəti uğurlu addım kimi dəyərləndirib. O, İctimai Şuranın üzvlərinə Dövlət Komitəsinin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, Komitə ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, onun fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının müdafiəsi kimi məqsədlərin həyata keçirilməsi istiqamətindəki fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra İctimai Şuranın təşkilati məsələləri ilə bağlı rəy və təkliflər səsləndirilib. İki il müddətinə fəaliyyət göstərəcək İctimai Şuraya üzvlər arasından səs çoxluğu ilə Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev sədr, Gənclər üçün Təhsil Mərkəzi İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə sədr müavini, Yeni Üfüq İctimai Birliyinin sədri Sevinc Əzimbəyli isə katib seçiliblər. İclasda çıxış edən Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev DQİDK-nın vətəndaş cəmiyyətləri ilə uğurlu əməkdaşlıq təcrübəsindən bəhs edib. Ə.Nuriyev Dövlət Komitəsi tərəfindən cəmiyyətin maarifləndirilməsi istiqamətinin aparılan işlərin önəmini qeyd edərək, İctimai Şuranın bu tədbirlərdə yaxından iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

## Bu gün 3875 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır

Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 3875 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov deyib.

İ.Axundovun sözlərinə görə, onlardan 3165 nəfəri hərbçi, 710 nəfəri isə mülki şəxslərdir. Dövlət Komissiyası bu işdə beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlıq edir. İki qurumun əsir və itkin düşmüş şəxslərin siyahısındakı fərqi 75-ə endirilib. Halbuki bu rəqəm 2015-ci ildə 350 nəfərdən yuxarı idi. İşçi qrupunun rəhbəri qeyd edib ki, bu günə kimi 1550 nəfər itkin düşmüş şəxslərin 4119-nun ailə üzvündən bioloji nümunələr götürülüb: "Hazırda bu istiqamətdə işlər davam etdirilir. Xatırladım ki, Azərbaycanda itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən 195 naməlum məzar yeri aşkarlanıb. Onlardan 185-nin GPS koordinatları çıxarılıb".

# Qabil Orucov: “MSK çox ciddi addımlar atır”



## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucovun SİA-ya müsahibəsi

***- Qabil müəllim, artıq namizədliyi təsdiq olunmuş prezidentliyə namizədlərin imzatoplama kampaniyasına start verilib. Bu proses necə həyata keçiriləcək?***

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin10-cu fəsli bütövlükdə namizədlərin irəli sürülməsi qaydalarını özündə ehtiva edir. Qanunvericiliyin tələblərinə uyğun olaraq namizədlərin irəli sürülməsi prosesindən sonra Mərkəzi Seçki Komissiyası səviyyəsində namizədlərin təsdiqolunma prosesi baş verir. Həmin prosesdən sonra isə namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanmasına start verilir ki, bu da onların müvafiq seçki komissiyasında qeydə alınması üçündür. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 56 və 57-ci maddələrinin tələblərinə uyğun olaraq namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması prosesi həyata keçirilir və qanunla müəyyən olunmuş müvafiq sənədlər seçki komissiyasına təqdim edilir. Bundan sonra isə namizədin qeydə alınması prosesi baş verir.

***- Seçki Məntəqələrində 1000 ədəd veb-kamera quraşdırılacağı bildirilir. Ümumiyyətlə, məntəqələrdə digər texniki məsələlərin həlli istiqamətində hansı işlər görülür?***

- Ümumiyyətlə, hər bir seçki prosesində Mərkəzi Seçki Komissiyası tərəfindən istər seçki məntəqələrinin, istərsə də seçki dairələrinin texniki təchizatı ilə bağlı bir çox mühüm proseslər həyata keçirilir. Konkret olaraq builki seçkilərdə 1000-ə yaxın seçki məntəqəsində veb-kameraların quraşdırılması bu məntəqə seçki komissiyalarının texniki təchizatı ilə bağlı irəliyə doğru atılmış bir addım kimi qiymətləndirilməlidir. Bilirsiniz ki, veb-kameraların seçki məntəqələrində quraşdırılması onlayn (online) rejimdə internet vasitəsilə dünyanın istənilən nöqtəsindən həmin səsvermə otağında seçki prosesinin həyata keçirilməsi hərəkətlərinə seçicilərin, həmçinin digər şəxslərin izləmək imkanlarını yaradır. Hesab edirəm ki, bu cür texniki vasitələrdən istifadə etməklə seçki prosesinin həyata keçirilməsi təbii ki, seçki prosesində qanunvericiliyin tələblərinə uyğun olaraq şəffaflığın təmin edilməsinə yönəlik atılan bir addımdır. Artıq 1000 ədəd veb-kameraların Azərbaycan Respublikasında keçirilən seçkilərdə tətbiqi istər Mərkəzi Seçki Komissiyası tərəfindən, istərsə də ölkədə olan mövcud siyasi iradəyə uyğun olaraq seçkilərdə şəffaflığın təmin olunmasına, yəni müşahidəçilik prosesinin daha da səmərəli təşkilinə yönəlik atılan mühüm bir addımdır.

***- Veb-kameralar vasitəsilə dünyanın istənilən yerindən bir çox məntəqələrdə seçkini şəffaf şəkildə izləmək mümkün olacaq. Sizcə bu, Azərbaycanı qeyri-obyektiv seçki keçirməkdə ittiham edən bəzi xarici və daxili qüvvələrə seçkilərin şəffaf olacağını sübut edən bir tutarlı fakt deyilmi?***

- Biz Mərkəzi Seçki Komissiyası olaraq seçki qanunvericiliyinin tələblərinə uyğun səsvermə prosesində müşahidəçilik institutunun daha geniş tətbiqi ilə bağlı çox ciddi addımlar atırıq. Təbii ki, seçki prosesinin ən mühüm amili də seçkilər prosesində şəffaflığın təmin olunmasıdır. Yəni, müşahidəçilik institutunun tətbiq olunmasıdır. Mövcud veb-kameraların belə geniş dairədə tətbiqi bir daha onu sübut edir ki, artıq səsvermə prosesi bütövlükdə tək müvafiq müşahidəçilər tərəfindən deyil, biz seçkilər prosesinin daha önünə gedərək hətta bütün dünya üçün seçki prosesinin izlənməsini təmin edirik. Hesab edirəm ki, bu da seçki prosesi ilə bağlı səslənən bəzi əsası olmayan fikirlərə tutarlı bir cavabdır.

***- Qabil müəllim, prezidentliyə namizədlərin təbliğat və təşviqat kampaniyasına nə vaxtdan start veriləcək. Bu proses hansı formada baş tutacaq?***

- Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq namizədliyi qeydə alınmış şəxslərin seçkiqabağı təşviqat prosesinin həyata keçirilməsi mərhələsi Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən olunur. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq namizədliyi qeydə alınmış Azərbaycan Respublikası Prezidentliyinə və digər seçkili orqanlara namizədlər qanunla müəyyən olunmuş müddətdə seçkiqabağı təşviqat prosesinə başlayırlar. Seçkiqabağı təşviqat hüququnun reallaşdırılması təbii ki, qanunla müəyyən olunmuş qaydada bu hüququn əldə edilməsi prosesindən sonra baş verir.

***- Ötəndəfəki prezident seçkilərindən fərqli olaraq bu dəfə hansı yeniliklər tətbiq ediləcək?***

- Ümumiyyətlə, biz Mərkəzi Seçki Komissiyası olaraq hər bir seçki prosesində istər seçki qanunvericiliyinin tətbiqi baxımından, istərsə də texnoloji vasitələrin tətbiqi baxımından bir çox mühüm addımlar atırıq. Budəfəki seçkilərdə də məntəqə seçki komissiyalarının, seçki məntəqələrinin, həmçinin dairə seçki komissiyalarının, seçki dairələrinin texniki təchizatı ilə bağlı eləcə də digər seçki qanunvericiliyinin tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsi baxımından bir çox yeniliklər nəzərdə tutulub və artıq bu yeniliklər tətbiq edilməkdədir. Hesab edirəm ki, bu cür yeniliklərin tətbiqi seçki prosesinin qanunla müəyyən olunmuş qaydada yüksək səviyyədə həyata keçirilməsinə töhfə verən amil olacaq.



## Baş prokuror İmişlidə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq, vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov fevralın 16-da İmişli Rayon Prokurorluğunun inzibati binasında İmişli, Biləsuvar, Cəlilabad, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər. Qəbul zamanı müraciət edən 27 vətəndaşın hər biri diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Müraciətlərdə bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## “TANAP boru kəməri iyunda istifadəyə veriləcək”

TANAP boru kəməri bu ilin iyun ayında istifadəyə veriləcək. Bu barədə AZƏRTAC-a müsahibəsində Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak deyib. Nazir qeyd edib ki, “Cənub Qaz Dəhlizi” layihəsi çox önəmli və dünyaca məşhur layihədir. Bu layihənin reallaşması Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi, ortaya qoyduğu güclü siyasət nəticəsində mümkün olub.

“Yanvardan etibarən TANAP-a sınaq məqsədilə təbii qaz vurulub. İyun ayında TANAP boru kəməri istifadəyə veriləcək. 2020-ci ildə isə Azərbaycan təbii qazı Avropaya çatacaq və bununla da “Cənub Qaz Dəhlizi” layihəsi yekunlaşmış olacaq”, - deyə Berat Albayrak əlavə edib.

# İtaliya KİV-ləri Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısından yazır

***İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, o cümlədən “Repubblica”, “Askanews”, “Milano Finanza”, “Trend-online”, “Agenzia Nova”, “Energiaoltre”, “La Gazzetta del Mezzogiorno”, “Borsa Italiana”, “Agenparl”, “Scenari Internazionali”, “Notizie Geopolitiche” kimi qəzet, xəbər agentliyi və portallar Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısına geniş diqqət ayırıb.***



AZƏRTAC xəbər verir ki, informasiyalarda Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin önəmi, toplantıda müzakirə olunmuş mövzular, layihənin icrası istiqamətində əldə olunmuş nəticələr, gələcək fəaliyyət planları barədə məlumat verilir. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin, Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarottonun, TAP-ın icraçı direktoru Luka Schieppatinin, TAP-ın prezidenti Ualter Peeraerin və digər iştirakçıların tədbirdəki çıxışlarından fikirlərə yer verilir.

Məlumatlarda, eləcə də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ilə İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto arasında keçirilmiş görüşdə müzakirə olunmuş mövzulara diqqət ayrılır, habelə nazir müavininə istinadən İtaliya hökumətinin TAP layihəsinin uğurla həyata keçirilməsində qərarlı olduğu bildirilir.

# İmişlidə dini radikalizmlə mübarizəyə dair seminar-müşavirə keçirilib

***Fevralın 16-da İmişlidə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və İmişli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirə keçirilib. Bu barədə AZƏRTAC-a DQİDK-nın mətbuat xidmətindən məlumat verilib.***



Din xadimlərinin, gənclərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən İmişli Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Hüseyn İbrahimov rayondakı dini durum, dini icmaların fəaliyyəti barədə danışıb.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu din siyasətindən söhbət açaraq qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Hazırda nümunəvi dövlət-din münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdiyini bildirən Səyyad Salahlı bu sahəyə göstərilən diqqət və qayğıdan bəhs edib. Vurğulayıb ki, ölkəmizdə dini ibadətgahlar dövlət vəsaiti hesabına əsaslı şəkildə bərpa edilir, yeniləri tikilir. Mütəmadi olaraq dini icmalara maliyyə vəsaitləri ayrılır.

Bölgədəki dini durumu və nüfuzlu din xadimlərinin fəaliyyətini yüksək qiymətləndirən sədrin birinci müavini dindarların ölkənin quruculuğunda, müdafiəsində, cəmiyyətin mənəvi-ruhi tarazlığının saxlanmasında böyük rola malik olduqlarını dilə gətirib. İslamın fundamental dəyərlərinin geniş təbliğ edilməsinin önəmini qeyd edən Səyyad Salahlı dini radikalizm və onun fəsadları barədə də danışıb. O, radikalizmə qarşı mübarizədə gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Dövlət Komitəsinin dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini radikalizmə qarşı mübarizənin metodologiyası barədə danışıb. Ə.Zülfüqarov dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu diqqətə çatdırıb. O, dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara aşılanmasının radikalizmin qarşısının alınmasında ən güclü vasitə olduğunu deyib. İmişli şəhər "Cümə" məscidi dini icmasının sədri və axundu Adıgözəl Bəşirov bildirib ki, milli mənəvi dəyərlərimizə, tarixi-dini abidələrimizə, dini icmaların və din xadimlərinin fəaliyyətinə göstərilən qayğının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu müsbət dinamika Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

## Hikmət Hacıyev: "Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması şəraitində sülhdən danışması açıq riyakarlıqdır"



Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistanın güc tətbiq edərək Azərbaycan ərazilərinin işğalını davam etdirməsi regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olaraq qalmaqda davam edir. AZƏRTAC xəbər verir ki, bunu ABŞ-ın xüsusi xidmət orqanlarının "Dünya üzrə təhdidlərin qiymətləndirilməsi" adlı hesabatında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar əks olunmuş məsələlərə münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyev deyib: Ermənistanın Azərbaycan ərazilərini hərbi işğal altında saxlaması, işğal olunmuş ərazilərdə qeyri-qanuni əməllərini davam etdirməsi və ərazilərin ilhaq edilməsinə (anneksiya) cəhd göstərməsi şəraitində sülhdən danışması açıq riyakarlıq, məsuliyyətsizlik və qeyri-ciddi yanaşmadır.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri dövlət başçıları səviyyəsində dəfələrlə bildiriblər ki, mövcud status-kvo qəbuledilməzdir və qeyri-dayanıqlıdır. İşğala əsaslanan status-kvonun dəyişdirilməsi üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində tələb olunduğu kimi, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması təmin olunmalı və nəticə etibarilə, münaqişənin siyasi həlli üçün hərbi risk amili aradan qaldırılmalıdır.

## Gənclər və idman naziri Cəlilabadda vətəndaşların qəbulunu keçirib



Fevralın 16-da gənclər və idman naziri Azad Rəhimov Cəlilabaddakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Lənkəran, Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı şəhər və rayonlarından ümumilikdə 20-dən çox vətəndaş iştirak edib. Qəbul zamanı gənclər sahəsi üzrə müraciətlər əsasən, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, müxtəlif layihələrin maliyyələşdirilməsi və onlara dəstək göstərilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti ilə bağlı olub.

İdman sahəsində isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təmin olunması, Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və digər mövzularla bağlı müraciətlər əksini tapıb. Bir sıra müraciətlər yerindəcə həll edilib. Araşdırılması tələb olunan məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.




## Ötən il Azərbaycan Türkiyə iqtisadiyyatına 1 milyard 9 milyon dollar investisiya yatırıb

Ötən il Azərbaycandan Türkiyə iqtisadiyyatına qoyulan birbaşa sərmayənin həcmi 1 milyard 9 milyon dollar olub. AZƏRTAC Türkiyə mətbuatına istinadla xəbər verir ki, bu ölkəyə ən çox investisiya yatıran ölkə Hollandiya, ən az isə Rusiya olub. Ötən il Hollandiya Türkiyə iqtisadiyyatına 1 milyard 768 milyon dollar sərmayə qoyub.

Qeyd edək ki, 2010-2016-cı illərdə Azərbaycanın Türkiyə iqtisadiyyatına yatırdığı investisiyanın məbləği 4 milyard 899 milyon dollar olub.

# Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasına uğurla start verdi

## Nizami





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Nizami rayonunda imzatoplama kampaniyası keçirilib.

Kampaniyadan öncə imza toplayan fəallara treninq keçirilib. İmza toplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib.

Fevralın 16-də isə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Nizami rayon şöbəsinin fəalları rayonda yerləşən 24 saylı Nizami I və 25 saylı Nizami II və 18 saylı Nərimanov-Nizami seçki dairələri üzrə müvafiq olaraq tələb olunan sayda imza toplayıblar.

Yüksək aktivlik şəraitində baş tutan prosesdə Yeni Azərbaycan Partiyasının Seçki Qərargahının Nizami rayon şöbəsinin 20-dən artıq fəalı iştirak edib. Hər bir fəal 1 imza vərəqəsini doldurmaq üçün dairə hüdudları üzrə sakinlərlə görüşüb, eyni zamanda, rayon təşkilatının qərargahında da imza yığıblar.Yeni Azərbaycan Partiyasının Seçki Qərargahının Nizami rayon şöbəsinin sədri Sədaqət Vəliyeva imzatoplama kampaniyası ilə əlaqədar bildirib ki, seçicilər kütləvi şəkildə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün imzalarını verərkən, dövlətimizin başçısının siyasətini dəstəklədiklərini və seçkilərdə Ona səs verəcəklərini də deyiblər.

Qeyd edək ki, 18 saylı Nərimanov-Nizami Seçki Dairəsi ərazisində (Nizami rayonu üzrə) 22 min nəfərdən çox, 24 saylı Nizami I Seçki Dairəsi ərazisində 40 min nəfərə qədər, 25 saylı Nizami II Seçki Dairəsi ərazisində isə 46 min nəfərədək seçici qeydiyyatdadır.

## İsmayıllı





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının İsmayıllı rayon şöbəsinin geniş iclası keçirilib. İclasda imza toplayacaq partiya fəalları ilə yanaşı, rayon şöbəsinin Seçki Qərargahının üzvləri də iştirak edib. İclasda imzatoplama qaydaları və seçkilərlə bağlı digər məsələlər müzakirə edilmişdir. Fevralın 16-dan Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin qeydiyyatı üçün imzatoplama kampaniyasına start verilmişdir.

## Ağdaş





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin geniş iclası keçirilmişdir. İclasda qərargah üzvləri ilə yanaşı, Seçki Qərargahı tərəfindən Yeni Azərbaycan Partiyasının Ağdaş rayon təşkilatında 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar, təyin edilən imza toplayacaq partiya fəalları da iştirak edirdi. İclası Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov açaraq, prezident seçkilərinə hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı çıxış etdi. Nəzərə çatdırdı ki, 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasının 8 fevral 2018-ci ildə keçirilən VI Qurultayının qərarı ilə Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülüb. Bildirdi ki, namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2018-ci il fevralın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilib. Mərkəzi Seçki Komissiyasının fevralın 14-də keçirilən iclasında isə, namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cənab İlham Əliyevin namizədliyi təsdiq olunmuşdur.

Sonra imza toplayan şəxslərlə treninq keçirildi. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin üzvü İsa Eminov "Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı prezidentliyə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması haqqında" Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı tərəfindən hazırlanmış təlimatla iclas iştirakçılarını tanış etdi. Daha sonra imza vərəqəsinin doldurulma qaydalarından danışaraq, müvafiq izahatlar verdi və məsələ ilə əlaqədar treninq iştirakçılarını maraqlandıran suallara cavab verdi.

Fevralın 16-da rayon ərazisində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cənab İlham Əliyevin müdafiəsi üçün seçici imzalarının toplanmasına başlanıldı. İmza toplanılması davam edir.

## Nəsimi





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Nəsimi rayonunda imzatoplama kampaniyası keçirilib. İmzatoplama kampaniyasından öncə, imza toplayacaq partiya fəalları üçün treninq keçirilib və imza toplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib. Daha sonra 11 aprel 2016-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin Seçki Qəragahının üzvləri arasında iş bölgüsü aparıb və görülməsi nəzərdə tutulan digər məslələ bir daha müzakirə olunub. Artıq 16 fevral tarixindən Nəsimi rayonundan imzaların toplanmasına başlanmışdır. İmzatoplama marafonu üçün YAP Nəsimi rayon təşkilatının binasında xüsusi şərait yaradılmışdır. Marafonun ilk günündə 693 partiya üzvü məmnuniyyətlə YAP Nəsimi rayon təşkilatının binasına gələrək, ümumxalq partiyası olan YAP tərədfindən irəli sürülmüş namizədin dəstəklənməsini öz imzaları ilə təsdiq etmişlər. Qeyd edək ki, Nəsimi rayon ərazisi üzrə 3 dairə-21, 22 və 23 saylı dairələr fəaliyyət göstərir. Seçkiyə start verildiyi gündən 27 nəfərdən ibarət Seçki Qərargahı yaradılmış və onlar arasında iş bölgüsü aparılmışdır. Seçki Məcəlləsinə uyğun olaraq, bütün işlər təsdiq olunmuş fəaliyyət planı əsasında həyata keçirilir. YAP Nəsimi rayon təşkilatı üzrə hər üç dairəni əhatə etməklə, 1450 nəfərdən imza toplanılmalıdır. Rayon təşkilatının 29892 nəfər partiya üzvü var. Bunlardan 7 minə yaxın partiya üzvü Nəsimi rayonunda yaşamaqla bərabər, həm də bu rayonda qeydiyyatdadırlar.

Ardı Səh. 7

# Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasına uğurla start verdi

Əvvəli Səh. 6

## Səbail



Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Azərbaycan Respublikası prezidentliyinə namizədliyinin müdafiəsi üçün Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi imzatoplama kampaniyasına start verdi.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev bildirdi ki, fevralın 14-də Mərkəzi Seçki Komissiyasının iclasında 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cənab İlham Əliyevin namizədliyi təsdiq edilib.

Qeyd etdi ki, seçki prosesi ilə əlaqədar olaraq, rayon şöbəsində 19 nəfər tərkibdə Seçki Qərargahı yaradılıb. Fevralın 16-dan etibarən, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb. Ş.Hacıyev Səbail rayonu üzrə 29 saylı Səbail və 23 saylı Səbail-Nəsimi Seçki Dairəsinin fəaliyyət göstərdiyini bildirdi. 29 saylı Səbail Seçki Dairəsində 30 məntəqə, 23 saylı Səbail-Nəsimi Seçki Dairəsində isə 10 məntəqə var.

Sonra Ş.Hacıyev imzatoplamanın qaydalarını izah edərək, müvafiq təlimat və tapşırıqlarını verdi.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin aparat rəhbəri Zəfər Bayramov, rayon şöbəsinin sədr müavini Muxtar Nağıyev çıxış etdilər. Tədbirdə imzatoplayan fəallara treninq keçirildi.

## Qobustan





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Qobustan rayonunda imzatoplama kampaniyası keçirilib.

Kampaniyadan öncə, imza toplayan fəallara treninq keçirilib. İmzatoplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib.

Fevralın 16-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin fəalları 50 saylı Abşeron- Qobustan Seçki Dairəsi üzrə Qobustan seçki məntəqələrinin ərazisindən tələb olunan sayda imza toplayıblar.

Yüksək aktivlik şəraitində baş tutan prosesdə Yeni Azərbaycan Partiyasının Seçki Qərargahının Qobustan rayon şöbəsinin 5-dən artıq fəalı iştirak edib. Hər bir fəal 1 imza vərəqəsini doldurmaq üçün məntəqə hüdudları üzrə sakinlərlə görüşüb, eyni zamanda, rayon təşkilatının qərargahında da imza yığıblar. Ümumilikdə, rayon üzrə 250 imzanın toplanması nəzərdə tutulmuşdur. Bu işlə əlaqədar 5 nəfərdən ibarət imza toplayan qrup hazırlanmış və onlarla treninqlər keçirilmişdir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev imzatoplama kampaniyası ilə əlaqədar bildirib ki, seçicilər kütləvi şəkildə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün imzalarını verərkən, dövlətimizin başçısının siyasətini dəstəklədiklərini və seçkilərdə Ona səs verəcəklərini də deyiblər.

## Suraxanı



11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi hazırlıq işlərinə start verib. Seçki prosesi ilə əlaqədar olaraq rayon şöbəsində 19 nəfər tərkibdə Seçki Qərargahı yaradılıb. Fevralın 16-dan etibarən, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin seçkilərdə namizədliyi ilə bağlı imzatoplama kampaniyasına başlanılıb. Qeyd edək ki, Suraxanı rayonu üzrə 3 Seçki Dairəsi fəaliyyət göstərir. 30 saylı Suraxanı birinci Seçki Dairəsi üzrə seçicilərin sayı 40065, məntəqələrin sayı 27 və 31 saylı Suraxanı ikinci Seçki Dairəsi üzrə seçicilərin sayı 39284 nəfər, məntəqələrin sayı 32 və 32 saylı Suraxanı üçüncü Seçki Dairəsi üzrə seçicilərin sayı 39946, məntəqələrin sayı isə 30-dur.

Dairələr üzrə 30 saylı Suraxanı birinci Seçki Dairəsi üzrə 350 imza, 31 saylı Suraxanı ikinci Seçki Dairəsi üzrə 450 imza, 32 saylı Suraxanı üçüncü Seçki Dairəsi üzrə 400 imza toplanacaq.

Hazırda YAP Suraxanı rayon şöbəsinin Seçki Qərargahında seçkilərdə Yeni Azərbaycan Partıyasını təmsil edəcək məşvərətçi və müşahidəçilərin sənədləri hazırlanır. Həmçinin, seçkidə ilk dəfə iştirak edəcək gənclərin adları müəyyənləşdirilib və seçicilərin siyahıları dəqiqləşdirilir. Seçki məntəqələrinə rayon təşkilatı tərəfindən baxış keçirilir.

## Şamaxı





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsi prezident seçkiləri ilə bağlı imzatoplama kampaniyasına start verdi. Dünən, rayon şöbəsinin Seçki Qərargahının toplantısı keçirilib. Toplantıda bildirilib ki, kvota üzrə Şamaxı rayonundan 600 imzanın toplanması nəzərdə tutulur və bu, bütün rayon ərazilərini, kənd və qəsəbələrini əhatə edir. Toplantıda, əminliklə bildirilib ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülən Cənab İlham Əliyevin qeydə alınması üçün rayon üzrə nəzərdə tutulan 600 imzanı çox qısa müddətdə toplamaq mümkün olacaq.

## Xaçmaz





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi prezident seçkiləri ilə əlaqədar hazırlıq işlərinə start verib. Rayon şöbəsinin üzvlərinin iştirakı ilə keçirilən toplantıda imza toplayan fəallara treninq keçirilib. Toplantıda imzatoplama kampaniyası ilə bağlı görüləcək işlər, seçicilərlə aparılacaq ümumi və fərdi söhbətlər, müzakirələr, təbliğat-təşviqat kampaniyası zamanı qanunvericiliyə uyğun olaraq, ayrılacaq yerlərdə təbliğat xarakterli materialların yapışdırılması, eləcə də, digər məsələlər müzakirə olunub və iş bölgüsü aparılıb.

Bildirilib ki, Yeni Azərbaycan Partiyasının Sədri, prezidentliyə namizəd Cənab İlham Əliyevin müdafiəsi üçün aparılan imzatoplama kampaniyası Xaçmaz rayon şöbəsi tərəfindən böyük ruh yüksəkliyi, fəallıqla aparılacaq və uğurla başa çatacaq.

Ardı Səh. 8

# Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasına uğurla start verdi

Əvvəli Səh. 7

## Şirvan



Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş İlham Əliyevin namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına start verilib.

Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatında imzatoplama kampaniyası uğurla həyata keçirilir. YAP Şirvan şəhər təşkilatının sədri Samid Abıyev imzatoplama kampaniyasından danışarkən bildirib ki, partiyamızın böyük seçki təcrübəsi var. Belə ki, 1993-cü ildən başlayaraq respublikamızda keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərinin qalibi YAP olub. Bu qələbələr YAP-ın cəmiyyətdəki yerinin möhkəm olduğunu, həmçinin dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq, xalqın bu təşkilata böyük etimad göstərdiyini təsdiq edir.

## Nərimanov



YAP Nərimanov rayon təşkilatı 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası prezidentliyinə namizədi İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanması prosesinə başlayıb.

Fevralın 16-da YAP Nərimanov rayon təşkilatının seçki qərargahının 20-dən çox imzatoplayan fəalı Nərimanov rayonu 18 saylı Nərimanov-Nizami, 19 saylı I və 20 saylı II Nərimanov Seçki Dairələri üzrə yaşayan sakinlərin imzalarını toplamaq üçün işə başlayıb. İmza toplayan fəallar Seçki Məcəllənin və qanunvericiliyin tələblərinə uyğun olaraq hər bir sakinlə fərdi qaydada görüşür, şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında məlumatları qeyd edir.

## Xəzər



Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin prezidentliyə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına start verilib. SİA-nın verdiyi məlumata görə, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, seçki prosesinə ciddi şəkildə hazırlaşırıq: "Biz öz işimizi partiyanın proqramı və seçki məcəlləsinin müddəalarına uyğun planlı şəkildə davam etdiririk. Qeyd edim ki, Xəzər rayonu üzrə 2 seçki dairəsi mövcuddur. 13 saylı Xəzər-Pirallahı seçki dairəsi və 14 saylı Xəzər Seçki Dairəsi. Artıq qərargahda seçkilərə hazırlıqla bağlı bir sıra tədbirlər görülüb. Belə ki, partiyanın namizədi üçün seçici imzası toplayacaq 18 partiya fəalı müəyyənləşib. Həmin 18 nəfər rayon ərazisini yaxşı tanıyan, seçki təcrübəsi olan insanlardır. Bu gündən artıq imzatoplama kompaniyası uğurla həyata keçirilir.

## Yasamal



Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına start verilib. Bakının Yasamal rayonu ərazisində də dünəndən kampaniyaya başlanılıb.

## Şabran

Yeni Azərbaycan Partiyasının rayon təşkilatları 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hazırlıqla bağlı geniş hazırlıq işləri həyata keçirməkdədir. Şabranda Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının rayon şöbəsi yaradılmış və imzatoplama kampaniyası, eləcə də digər məsələlərlə bağlı seçki qərargahının üzvlərindən ibarət iş bölgüsü aparılmışdır.

Rayon şöbəsinin toplantısında bildirilmişdir ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab



İlham Əliyevin qeydiyyatı üçün rayon üzrə nəzərdə tutulan imzaları vaxtında və yüksək səviyyədə başa çatdırılacaq.

## Qubadlı



11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi İlham Əliyevin namizədliyinin dəstəklənməsi məqsədi ilə Qubadlı rayonu üzrə seçici imzalarının toplanması prosesinə başlanılıb. Qubadlı rayonu ərazisini əhatə edən 125 saylı Qubadlı-Zəngilan DSK üzrə 350 imzanın toplanması nəzərdə tutulub. YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev bildirib ki, bununla bağlı YAP Qubadlı rayon təşkilatında 12 nəfərdən ibarət Seçki Qərargahı, 7 nəfərdən ibarət imzatoplayan qrup yaradılıb. Qeyd edək ki, Qubadlı rayonunda imzatoplama perosesinin 2 gün müddətində başa çatdırılması nəzərdə tutulur.

## Salyan



Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatı 11 Aprel 2018-ci ildə keçiriləcək Prezident seçkilərində Yeni

# Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasına uğurla start verdi

Azərbaycan Partiyasının namizədi İlham Əliyevin namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasında Salyan rayonu üzrə 14 nəfər iştirak edib 700 imza toplamışdır.

### Siyəzən



Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına start verilib. Kampaniyanın başlaması ilə əlaqədar YAP Siyəzən rayon təşkilatının Seçki Qərargahında müşavirə keçirilib.

YAP Siyəzən rayon təşkilatı bu kampaniyaya yüksək fəallıq şəraitində başlayıb. Partiya fəalları tələb olunan sayda imzaların toplanması üçün səylər göstərir, ölkə əhalisinin seçkilərə böyük ruh yüksəkliyi ilə qatılmalarından, imzatoplamada fəal iştiraklarından məmnunluq hissi keçirdiklərini bildirirlər.

### Saatlı

Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün Saatlı rayonunda imza toplanır. İmzatoplama kampaniyasında YAP-ın gəncləri xüsusi fəallıq göstərirlər.

### Kürdəmir



Kürdəmirdə 11 aprel 2018-ci il tarixdə keçiriləcək Prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəlü sürülmüş namzədin müdafiəsi üçün imzatoplama kampaniyasına start verilib. YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, seçki qərargahı növbəti mərhələyə start verib.

Bu günə qədər partiyamızın İcra Katibliyi tərəfindən verilən tövsiyə və tapşırıqlara uyğun olaraq müvafiq mərhələlər üzrə nəzərdə tutulan işlərin uğurla həyata keçirildiyini söyləyən Ağali Kərimli deyib ki, Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin müdafiəsi üçün imzatoplama kampaniyasına cəlb olunmuş partiya fəalları bu mərhələni də uğurla başa vuracaqlar.

### Pirallahı





Pirallahı rayonunda 2018-ci il aprel ayının 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq yüksək səviyyədə aparılıb. Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında partiyadan namizədliyi irəli sürülmüş ölkə Prezidenti cənab İlham Əliyevin seçkiqabağı kampaniyasına dəstək məqsədilə YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsi yaradılıb.

YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsi və partiyanın rayon təşkilatının sədri Hikmət Şikarov bildirib ki, YAP Pirallahı rayon təşkilatının fəalları ilə görüşlər təşkil edilib, imza toplayacaq şəxslərlə treninqlər keçirilib.

YAP Pirallahı rayon təşkilatı imzatoplama kampaniyasını ruh yüksəkliyi ilə həyata keçirir.

Ümumilikdə rayon üzrə 350 imza toplamaq üçün 7 nəfər YAP üzvü kampaniyaya cəlb olunub.

### Gəncə

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatı prezident seçkiləri ilə əlaqədar hazırlıq işlərinə start verib. Seçki prosesi ilə əlaqədar olaraq YAP Gəncə şəhər təşkilatında 25 nəfər tərkibdə seçki qərargahı yaradılıb.

Fevralın 16-dan etibarən, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb.

YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev bildirib ki, öncə imzatoplayan fəallara treninq keçirilib, imza toplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib. YAP Gəncə şəhər təşkilatında bu gündən start verilən imzatoplama kampaniyası uğurla həyata keçirilir və seçicilər böyük aktivlik nümayiş etdirirlər.

## Albaniya Prezidenti Bakıya gələcək



Albaniya Respublikasının Prezidenti İlir Meta Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 15-18-də keçiriləcək VI Qlobal Bakı Forumunda iştirak edəcək. Diasporla İş üzrə Dövlət Komitəsindən SİA-ya verilən məlumata görə, bu məqsədlə Albaniya Prezidentinin Azərbaycana səfəri nəzərdə tutulub.

İlir Metanın Forumda Balkan regionunda mövcud geosiyasi vəziyyətə həsr olunmuş panel müzakirələrdə iştirakı gözlənilir. Tədbir çərçivəsində həmçinin, Yaxın Şərq regionunda sülh və təhlükəsizlik məsələləri, müasir dövrdə ictimai və siyasi həyatda gənclərin artan rolu kimi mövzular barədə müzakirələr aparılacaq. Ötən ilin aprelindən ölkəsinə rəhbərlik edən İlir Meta daha əvvəl Albaniyanın Baş naziri, Xarici işlər naziri və Parlamentin sədri vəzifələrində çalışıb. Forumun işində İlir Meta ilə yanaşı, 10-dan çox ölkənin prezidenti, baş naziri və xarici işlər nazirlərinin iştirakı gözlənilir. Eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan sabiq ölkə və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlərin də daxil olduğu 500 nəfərə yaxın qonağın iştirakı nəzərdə tutulur.

## "İsrail parlamenti Ermənistanı istəyinə çatdırmadı"

İsrail parlamenti qondarma "erməni soyqırımı" ilə bağlı qanun layihəsini ilkin səsvermədə rədd edib. İsrailin xarici işlər nazirinin müavini Tsipi Xotoveli bildirib ki, məsələ ciddi siyasi xarakter daşıyır, hətta diplomatik fəsadlara gətirib çıxara bilər. Bu səbəbdən İsrail qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı rəsmi mövqe tutmayacaq.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən siyasi şərhçi Azər Həsrət deyib ki, bu gün Azərbaycan dövləti ilə İsrail bütün məsələlərdə tərəfdaşdırlar: "Hər iki dövlət bütün məsələlərdə ortaq məxrəcə gələ bilirlər. Təbiidir ki, Azərbaycanla İsrailin maraqları üst-üstə düşdüyünə və eyni zamanda da müəyyən məsələlərdə İsrail Azərbaycanın maraqlarını nəzərə aldığına görə ermənilər öz istəklərinə nail ola bilmədilər. Sözügedən qanun layihəsi İsrailin müxalifət "Eş Atid" partiyasının lideri Yair Lapid tərəfindən irəli sürülmüşdü. Ermənipərəst mövqeyi ilə seçilən partiya sədri çıxışlarında İsrailin Türkiyə ilə barışıq əldə etməsinə qarşı çıxıb, dəfələrlə kürdlərə dəstək nümayiş etdirib. Bu gün Türkiyə ilə İsraili münasibətləri gərgindir. Ümumilikdə İsrail dövlətinin mənafeləri ilə Azərbaycan dövlətinin mənafeləri üst-üstə düşür. Burada İsrailin "erməni soyqırımı"nı qəbul etməməsinə ən əsas səbəb Azərbaycanla olan tərəfdaşlığıdır".

## BP gələn il "Şəfəq-Asiman" strukturunda ilk quyunu qazacaq

Gələn il "Şəfəq-Asiman" strukturunda ilk quyu qazılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Counz deyib. BP-nin regional prezidenti qeyd edib ki, 2019-cu ildə Xəzərin Azərbaycan sektorundakı "Şəfəq-Asiman"da ilk kəşfiyyat quyusunun qazılması planlaşdırılır. Bu yataqdan hasil edilən təbii qaz gələcəkdə Cənub Qaz Dəhlizi ilə Türkiyə və Avropaya nəql olunacaq.

# Ermənistanın beynəlxalq nəqliyyat problemi: tunelin sonunda işıq görünmür



***Ermənistanın beynəlxalq nəqliyyat sahəsində yaşadığı problemlər iqtisadi və ticari sahələrə birbaşa mənfi təsir edir. Bu problem davam etdiyi müddətdə iqtisadiyyatın canlanması, ticarət dövriyəsinin artması mümkün görünmür. Ermənistanın Rusiya ilə nəqliyyat yolu Gürcüstandan keçməklə Rusiya ilə sərhəd bölgəsində yerləşən Yuxarı Lars yolu ilə tamamlanır. Amma Yuxarı Lars yolu dağlıq ərazidən keçir, qış mövsümündə qar və uçqunlar, yaz mövsümündə isə dağ çaylarının daşması bu yolu uzun müddət bağlayır. Təbii ki, bu zaman Ermənistandan Rusiyaya ixrac malları daşıyan maşınlar bir həftə, on gün, bəzən də daha artıq yolların açılmasını gözləyir ki, bu da həm həm nəqliyyat xərcini artırır, həm də tez xarab olan malların keyfiyyətini aşağı salır. Qısacası, Yuxarı Lars yolunun mövsüm şərtlərinə görə bağlı olması Ermənistan üçün ciddi problemdir.***

### Alternativ yollar varmı?

Alternativ yollar əlbəttə var. Sovetler dövründən qalan Abxaziya və Cənubi Osetiyadan keçən dəmir yolunun açılması Ermənistanın beynəlxalq nəqliyyat yolu problemini kökündən həll edər. İkinci ən qısa və ucuz başa gələn yol isə Azərbaycandan keçən və Ermənistanı Rusiya ilə birləşdirən dəmir yolu xəttidir. Amma Ermənistanın bu alternativ yolların açılması və istifadə etməsi üçün gərəkli addımları atmağa heç bər təsir mexanizmi yoxdur. Gürcüstan Abxaziya və Cənubi Osetiya problemini özünün ərazi bütövlüyü çərçivəsində həll edilmədiyi təqdirdə bu ərazilərdən keçən dəmir yolunun açılmasında maraqlı deyil. Ermənistan Azərbaycan torpaqlarının təxminən 20 faizini işğal etdiyi üçün təbii ki, Azərbaycandan keçərək Rusiyaya birləşən dəmir yolu xəttindən də istifadə edə bilmir. Yəni Ermənistanın nəqliyyat problemi "qısır döngü" içərisindədir və əsasən hava şəraitinin ümidinə qalıb.

### Müzakirələr nə deyir?

2008-ci ildə Rusiyanın Gürcüstana hərbi müdaxiləsi baş verməsəydi, Ermənistan Rusiya ilə birlikdə Abxaziya və Cənubi Osetiya yolundan istifadə etmək üçün Gürcüstan hökumətindən hansısa formada razılıq ala bilərdi. Amma 2008-ci ildə Rusiyanın Abxaziya və Cənubi Osetiyanı özünə birləşdirməsindən sonra bu məsələ belə demək mümkündürsə, "ərəb saçı" kimi qarmaşıq hal aldı.

2008-ci il Rusiya-Gürcüstan arasında yaşanan siyasi və hərbi ixtilafın nəticələri hələ də davam edir. Tərəflər arasındakı bəzi problemlər qarşılıqlı müzakirələr nəticəsində həll edilsə də, "sümükləşən" problem olaraq bilinən məsələlərdən biri də Rusiyanın Gürcüstanın ərazi bütövlüyünü tanımaması, Abxaziya və Cənubi Osetiyanı dəstəkləməsidir. 2011-ci ildə Gürcüstanla Rusiya arasında yükdaşımaların tənzimlənməsi haqqında müqavilə imzalamaq haqqında razılıq əldə edilmişdi. Bu razılaşmaya görə İsveçrənin SGS şirkəti vasitəçi olaraq imzalanacaq müqavilənin şərtlərinin həyata keçirilməsinə nəzarət edəcəkdi. Tərəflərin 7 ildir müzakirə etdikləri məsələ barəsində hələ də ciddi razılaşma əldə edilməyib. Bir ay əvvəl Gürcüstan hökuməti İsveçrənin SGS şirkəti ilə müqavilə imzalasa da, Rusiya tərəfi hələ tələsmir.

Gürcüstan hökuməti müzakirələrdə ərazi bütövlüyünün Rusiya tərəfindən tanınmasını tələb etdiyi halda, son zamanlarda Rusiyanın Abxaziya və Cənubi Osetiya ilə sərhəddə gömrük terminalları quraşdırması Gürcüstanı narahat edir. Məsələ ilə bağlı Rusiya XİN müavini Qriqoriy Karasinə jurnalistin "Ermənistan bu razılaşmanın əsas benefisiarı olacaq, doğrumu anladım?'' sualına "Ermənistan həqiqətən bəzi xahişlər etmişdi, amma burada əsas məsələ Rusiya-Gürcüstan razılaşmasıdır və üçüncü tərəfə - Abxaziya və Cənubi Osetiya qarşısında heç bir öhdəlik götürülmür'' deyə cavab vermişdir.[i]

Rusiya və Gürcüstan bu razılaşmanı imzalayacaqları müqavilə ilə həyata keçməsində maraqlıdır. Ancaq burada əsas məsələ tərəflərin siyasi maraqlarının ortaq məxrəcə gətirilməsidir ki, Abxaziya və Cənubi Osetiya problemləri Gürcüstanın ərazi bütövlüyü çərçivəsində həll edilmədiyi müddətdə bu olduqca çətin bir məsələdir. Gürcüstan hüquqi bir təminat almadan Rusiya ilə müqaviləni imzalayar və həyata keçirərsə, Abxaziya və Cənubi Osetiyanın iqtisadi müstəqilliyini qəbul etmiş olaur.Ermənistan maraqla Rusiya və Gürcüstan arasında müzakirələrin yekunlaşmasını və müqavilənin imzalanmasını gözləyir və bunu bir şəkildə nəqliyyat problemlərinin həll edilməsində vasitə olaraq görür. Amma bu müqavilə İsveçrənin SGS şirkətinin vasitəçiyi ilə Rusiya və Gürcüstan arasında imzalanıb və Karasinin dediyi kimi üçüncü ölkə qarşısında heç bir öhdəlikləri yoxdur.

***Hatəm Cabbarlı,***
***siyasi elmlər doktoru***
***newtimes.az***

# "Ölkəmiz böhtan kampaniyalarına qarşı hücum taktikasından istifadə etməlidir"



"Azərbaycan artıq 25 ilə yaxındır ki, qarayaxma kampaniyaları ilə qarşı-qarşıyadır. Yəni ölkəmizdə mühüm ictimai, siyasi, beynəlxalq tədbirlər və ya seçki prosesləri ərəfəsində Azərbaycana qarşı belə kampaniyalar başlayır. Bu kampaniyaların haradan, kimlər tərəfindən və ya nə məqsədlə qaynaqlandığı hər kəsə məlumdur". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Onun sözlərinə görə, ölkəmizi sevməyən qüvvələr Azərbaycandan nəsə qopartmaq, ölkəmizə öz xeyirlərinə olan məsələyə görə təzyiq etmək üçün vaxtaşırı belə kampaniyalara əl atmağa çalışırlar: "Lakin onların cəhdləri heç bir nəticə vermir. Əksinə, Azərbaycan gündən-günə özünün dövlətçiliyini möhkəmləndirir, daxili, iqtisadi sabitliyini inkişaf etdirir, dünyada öz hörmətini, nüfuzunu artırır, daha da güclənir. Ölkəmiz mühüm nəqliyyat şəbəkəsinə çevrilməklə yanaşı, enerji təhlükəsizliyi təminatçısı, regionun lider dövlətidir. Azərbaycan güclü iqtisadiyyata və orduya malikdir". Ölkəmizin qarayaxma kampaniyalara qarşı ayıqsayıq olduğunu deyən deputat bildirib ki, Azərbaycan onu sevməyən qüvvələrin, düşmənlərinin olduğunu bilir: "Bunların qarşısını almaq mümkün deyil, lakin Azərbaycan onlarla çox güclü mübarizə aparır. Çünki belə qüvvələri özbaşına buraxmaq olmaz".

Azərbaycanla korrupsiya ələqələrində ittiham olunan AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Luka Volonte barədə İtaliyanın Milan məhkəməsinin bəraət qərarını şərh edən E.Məmmədov söyləyib ki, Azərbaycan bununla kifayətlənməməli, ölkəmizə qarşı şər böhtan kampaniyası yayanlara qarşı məhkəmə iddiası qaldırmalı, onların beynəlxalq hüquq qarşısında cavab verməlirini tələb etməliyik. Azərbaycan artıq hücum taktikasından istifadə etməlidir. Bu məsələlər kimlər tərəfindən qaynaqlanırsa, biz onlar haqqında beynəlxalq hüququn qaydalarına əsaslanıb, beynəlxalq məhkəmələr qarşısında məsələ qaldırmalıyıq. Bəlkə bundan sonra onlara bir dərs olar". E.Məmmədovun sözlərinə görə, avropalı deputatın əli ilə həyata keçirilən qarayaxma kampaniyasında maraqlı olan mənbələr var: "Belə deputatlar maddi maraqlar və ya digər məsələlərin qarşılığında şirnikləşdirilərək ortaya atılır. Bunların heç biri əsassız deyil, məqsədli və müəyyən qurumlar tərəfindən xüsusi proqram əsasında hazırlanan, maliyyələşdirilən kampaniyalardır. Onlar tək Azərbaycana qarşı deyil, digər ölkələrə qarşı da aparırlar. Komanda hansı tərəfə verilsə, onlar həmin tərəfə istiqamətlənirlər. Onları muzdlu diplomat adlandırsaq daha düzgün olar".

## Yanvarda dövlət büdcəsinin gəlirləri 1393,1 milyon manat, xərcləri 976,5 milyon manat olub

Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, yanvar ayında dövlət büdcəsinin gəlirləri 1393,1 milyon manat, xərcləri 976,5 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, büdcənin icrasında 416,6 milyon manatlıq və ya ümumi daxili məhsulun 6,9 faizi qədər profisit yaranıb.



# Azərbaycan diaspora quruculuğu yeni mərhələdə

***Tarixin dönəmlərindən bizə bəllidir ki, dünya ölkələrinə səpələnmiş soydaşlarımız milli düşüncəni, ziyalı mövqeyini ortaya qoysalar da, diasporun təşkilatlanmasına uzun illər müvəffəq ola bilməmişdilər. Ümumbəşəri sivilizasiya xəzinəsinə misilsiz töhfələr bəxş etmiş yüzlərlə azərbaycanlı dühа dünyanın bir sıra ölkələrində yaşamış və şöhrət tapmışdı. Etiraf edək ki, Azərbaycan dünyaya səpələnmiş ziyalıların qismində elm və sənət ocağı kimi tanınsa da, dünya ictimaiyyətinə həqiqi ictimai-siyasi-mədəni palitrasını tanıtdıra bilməmişdir.***

Sovet dövründə hökumətin tətbiq etdiyi sərt sərhəd rejimi SSRİ-dən xaricə axını məhdudlaşdırsa da, dissident hərəkatı əvvəlki illərlə müqayisədə daha kütləvi xarakter almışdır. Dissident hərəkatının və azad fikrin genişləndiyi dövrdə - 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başlaması respublikanın həyatında, ictimai şüurun və milli özünüdərkin təşəkkülündə yeni mərhələnin özülünü qoymuş oldu. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, respublikamızın nailiyyətləri təbliğ edilirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olmuşdur. 1993-cü ildə Ümummilli Liderin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Azərbaycan diasporu yeni inkişaf yoluna qədəm qoydu. Bu yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və davamlı olaraq, həyata keçirildi. Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması və lobbiçiliyin təşkili xarici siyasətin prioritet istiqamətlərindən birinə çevrildi. Bu isə, əslində, respublikamızda aparılan dövlət siyasəti ilə ümummilli mənafelərin ortaqlaşması deməkdir. Ulu Öndər Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərmanı Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsini və s. nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmiş oldu. Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Cənab İlham Əliyevin məlum Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Bu gün Azərbaycan diasporu dünyanın bütün qitələrində ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, İsveçrə, Qazaxıstan və İtaliya kimi onlarla dövlətdə fəaliyyət göstərir. Belə ki, dünya ölkələrində Azərbaycan Fransız Gənclik Assosiasiyası, Fransa-Azərbaycan Mədəni Əlaqələr Assosiasiyası, Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar diaspora quruculuğu siyasətinin məntiqi olaraq təşəkkül tapıb. Bu və ya digər qurumların qloballaşan dünyamızda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin və siyasi dairələrinin müzakirəsinə çıxarılması ilə bağlı gördüyü işlər kifayət qədərdir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlib.

Bir məsələni diqqətə çəkmək istərdim. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisini və mülki obyektlərini hədəflənmiş şəkildə və qəsdən ağır silahlardan atəşə tutması nəticəsində, baş verən olaya diaspora təşkilatları reaksiya verərək, dünya ictimaiyyətini ermənilərin təcavüzkar siyasəti ilə bir daha tanış etdilər. Alman-Azərbaycan Mədəniyyəti Cəmiyyəti, Özbəkistandakı Azərbaycan Milli Mədəniyyət Mərkəzi, Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzi və onlarla belə təşkilatlar Ermənistan ordusunun Alxanlıda mülki insanları qətlə yetirməsi ilə bağlı bəyanat yayıb, aksiyalar və mitinqlər keçirdilər.



**"MƏN ÇOX İSTƏYİRƏM Kİ, XARİCDƏ FƏALİYYƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARI DA BİR NÖQTƏYƏ VURSUNLAR, BİRLƏŞSİNLƏR. BELƏ OLAN HALDA, ONLARIN GÜCÜ DƏ, İCTİMAİYYƏT TƏRƏFİNDƏN ONLARA QARŞI HÖRMƏT DƏ ARTACAQ"**

Ölkəmizdə keçirilən dünya azərbaycanlıların qurultayları da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələr sırasındadır. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri və rəhbərləri Azərbaycana - doğma Vətənə gəlir, birlik və həmrəyliyi nümayiş etdirirlər. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq", - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparılması dünya azərbaycanlılarının daha da sıx birləşməsinə təkan oldu.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporunun, uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq və "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda, bu illər ərzində, diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış ola bilirlər".

Dünya ilə sərhədsiz münasibət quran Azərbaycan müxtəlif qitələrdə öz sözünü əməli çərçivəsində deyə bilir. Azərbaycandan kənarda iri məzmunlu layihələrin əsasında bəşəriyyətə humanizm dəyərlərini əxz etmək, dinindən və dilindən asılı olmayaraq, qeyri-millətləri dialoqa cəlb etmək kimi qlobal mahiyyət kəsb edən məsələlərin icrasında artıq özünü təsdiqləyən Heydər Əliyev Fondu müasir dövrümüzdə Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rola malikdir. Keçirilən tədbirlər və gerçəkləşən layihələr Qərb ilə Şərqin qovuşmasında körpü rolunu oynamaqla yanaşı, istənilən sahədəki mövcud amilləri - Azərbaycan məfhumunu dünyaya yaxınlaşdırıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyası çərçivəsində tədbirləri xüsusi qeyd etməliyik. "Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər heç yerdə təkrar olunmasın" - deyən Leyla Əliyeva 2008-ci il mayın 8-də "Xocalıya Ədalət" beynəlxalq kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürüb. Artıq neçə illərdir ki, Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın onlarla ölkəsində bu faciəyə həsr olunmuş tədbirlər keçirilir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar təşkil olunur, kitablar nəşr edilir və filmlər çəkilir. Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn belə tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də, xarici kütləvi informasiya vasitələrinin əməkdaşları dəvət olunurlar. "Xocalıya Ədalət" rep üslubunda yazılmış mahnı da Leyla xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Kampaniya çərçivəsində "Müharibə cinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə" adlı kitab çapdan çıxdı. Avropa Azərbaycan Cəmiyyəti tərəfindən Sankt-Peterburqda və İstanbulda çap olunmuş kitab rus və türk dillərindədir. Bu kitab həm də Qərbdə ingilis dilində çap edilmiş ilk müstəqil nəşrdir.

"Xocalıya Ədalət" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina kimi parlamentlər Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyırlar. ABŞ-ın Vest Virciniya, Missisipi, Meyn, Texas, Arkanzas, Oklahoma, Nyu-Meksiko, Tennesi və digər ştatlarının qanunverici orqanlarında da Xocalı faciəsi ilə əlaqədar qətnamələr qəbul edilib. Bu istiqamətdə tədbirlər davam etdirilir. Artıq dünyada insanlar həqiqəti yalandan ayırmağı bacarır. Prezident Cənab İlham Əliyevin bu sahədə ardıcıl, qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir, dünyada birlik və həmrəylik nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir*

# Məğlubiyyət müxalifətin alın yazısına çevrilib

*Ağıl ağıldan üstün olar deyiblər, amma bunlar eyni ağıldaymış*

***Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı boykot qərarı vermiş AXCP, Müsavat və "Milli Şura" rəhbərliyinə qarşı elə müxalifət düşərgəsində sərt ittihamlar səslənidirilir. Xüsusilə, də, Əli Kərimli və Cəmil Həsənli cütlüyü müxalifət partiya yetkililəri tərəfindən hədəfə alınıb. Əslində, Ə.Kərimli-C.Həsənli cütlüyünü seçki prosesinin necə keçəcəyi deyil, öz şəxsi maraqları düşündürür. Hər ikisinin məqsədi Azərbaycana qarşı lüzumsuz çıxış edən bir sıra xarici dairələrin diqqətlərini özlərinə cəlb etmək, bununla da, onlardan maliyyə vəsaiti qoparmaqdan ibarətdir. Boykot çağırışı edənlər daha çox şəxsi uğur və şəxsi maraqları haqda düşünür, belə hesab edirlər ki, bu addımı atmaqla, bəzi beynəlxalq təşkilatların diqqətini çəkib, onlarla bazarlıq etmək mümkün olacaq. Amma fikirləşmirlər ki, boykot etmək uğurlu seçki taktikası deyil.***



### İkisi bir boyda gəzən...

İstər partiya, istərsə də dövlətçilik maraqları baxımından boykot qərarı yanlış seçilmiş taktikadır. Belə bir dönəmdə boykot çağırışı etmək ölkə maraqlarına xidmət etmir. Daha doğrusu, ziyan vurmaq kimi qiymətləndirilməlidir. Müxalifətin bir araya gələ bilməməsində əsas günahkar elə AXCP və onun qoşqusu hesab olunan "Milli Şura"dır. Görünən odur ki, müxalifətin birləşə bilməməsinin əsas kökündə, bilavasitə elə Ə.Kərimli və C.Həsənli durur. Sözün əsl mənasında, hər ikisi öz şəxsi maraqlarına hər şeyi qurban verməklə, sübut edirlər ki, əslində, xəyanətkarlığı özləri edirlər. Elə, bu səbəbdən də, müxalifət heç bir məsələdə razılığa gələ bilmir. Buna görə də, müxalifət üçün görünən mənzərə onların məhvini və arxivə atılmalarını bir qədər də sürətləndirmiş olur. Bu da dağıdıcı müxalifət liderlərinin yarıtmaz və anormal siyasət aparmalarından irəli gəlir.

### Boykot qərarı heç bir nəticə verməyəcək

Müxalifət düşərgəsində təmsil olunan partiyalar daha öncələr, boykot məsələsindən istifadə etmələrinə baxmayaraq, heç bir uğur qazana bilməyiblər. Əksinə, boykot qərarı verən partiya sədrləri, onsuz da, olmayan nüfuzlarını və sosial bazalarını itirməyə məhkum olublar. Bu gün seçkilərlə bağlı boykot qərarı verənlər öz təşkilatlarının məhvinə qərar vermiş olacaqlar. Düşünmürlər ki, boykot çağırışını əvvəllər də ediblər. Dəfələrlə bir neçə siyasi partiyalar, hətta bloklar seçkilərdə iştirakdan imtina ediblər. Amma uğursuzluğa düçar olublar. Seçkilər yüksək seçici fəallığı ilə başa çatıb. Beləliklə də, parçalanmış vəziyyətdə olan düşərgə daha ağır duruma düşməkdədir. Çünki fakt göz qarşısındadır.

**Afət TAHİRQIZI**

# Mərkəz sədri: "Orduda ermənilər bir-birini qırır"



"ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona son səfərindən sonra yaydıqları bəyanatda atəşkəs rejiminin pozulması yenidən ön plana çıxdı. Son bir neçə bəyanatlarında danışıqların intensivləşdirilməsi əsas tövsiyə idi. Bu, Ermənistanı qane etmirdi. Buna görə Ermənistan qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədində yenidən hərbi təxribatları aktuallaşdırdı". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.

Onun sözlərinə görə, qoşunların təmas xəttində əvvəlcə bir və sonra digər erməni hərbçisinin ölməsi ilə bağlı həm Azərbaycan, həm də Ermənistanın Müdafiə Nazirliyi və onun Azərbaycanın işğal olunmuş ərazilərindəki törəmə qurumu məlumat yaydılar: "Fakt budur ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumat həqiqətə daha çox oxşayır. Eyni hadisə Ermənistan-Azərbaycan dövlət sərhədində də baş verdi Ermənistanın Müdafiə Nazirliyinin bu insidentlə bağlı yaydığı məlumatda aksent yandırılan "UAZ" markalı maşının Ermənistana məxsus olmaması üzərindədir. "UAZ"-ın digər qonşu dövlətlərdən hər hansı birinə məxsusluğu da istisna edilmir. 2015-ci ildə də erməni hərbçiləri RF dövlət nömrə nişanlı yük avtomobili ilə dövlət sərhədində manevrlər etməklə Azərbaycan hərbçilərinin diqqətini cəlb edə bildilər. Nəticədə, Azərbaycan hərbçiləri RF-in Şimali Osetiya regionunda yaşayan erməniyə məxsus, RF dövlət nömrə nişanlı iri qabaritli yük avtomobilini sıradan çıxartdılar.

Həmsədrlər qəbul etmək istəmirlər ki, həm qoşunların təmas xəttində, həm də dövlət sərhədində atəşkəs rejiminin pozulmasında ermənilər həddsiz maraqlıdırlar. Qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqla Ermənistan insidentlərin tədqiqi mexanizmlərinin zəruriliyini və ümumilikdə qoşunların təmas xətti mövzusunun aktuallığını əsaslandırırlar. Bununla da qoşunların təmas xətti anlayışına "sərhəd" məzmunu vermək istəyirlər. Dövlət sərhədində insident törətməklə Ermənistan Rusiyanı Azərbaycana qarşı hərbi təxribata çəkmək istəyir. Çünki Ermənistanın RF-lə hərbi təhlükəsizlik müqaviləsi mövcuddur. Bu müqaviləyə görə Ermənistan Respublikasının sərhədlərinə təhlükə yarandıqda RF Ermənistana kömək etməlidir.

Əgər ermənilər Azərbaycan Ordusundan qorxmasaydılar atəşkəs rejimini tez-tez pozardılar. Azərbaycan Ordusu son illərdə erməni təxribatlarına kəskin cavab verir. Amma buna baxmayaraq ermənilər əllərinə imkan düşən kimi atəşkəs rejimini pozurlar.

Təəssüf ki, həmsədrlər məsələnin bu tərəfini nəzərə almadan atəşkəs rejiminin pozulmasında əksərən Azərbaycanı günahkar göstərməyə cəhd edirlər. Bu ermənilərin marağına tam cavab verir. Vasitəçilərin belə məsələləri nəzərə almamasının ucbatından indi orduda ermənilər bir-birini qırırlar. Rəsmi statistikaya görə 2017-ci ildə işğal olunmuş Azərbaycan ərazilərindəki erməni ordusu 60 itki verib. Erməni mənbələrinə görə bunlardan yalnız 22-si Azərbaycan hərbçilərinin açdığı atəş nəticəsində ölüb. Qalan 38-ni isə digər erməni öldürüb. Ermənilərin öldürdüyü erməni hərbçilərinin sayı azərbaycanlıların öldürdüyü ermənilərin sayından təxminən 2 dəfə çoxdur. Beləliklə, S.Sərkisyan atəşkəs rejiminin pozulmusı məsələsini uzun müddət gündəlikdə saxlaya bilər. ATƏT MQ həmsədrləri bu işdə S.Sərkisyana yardımçı olurlar. Söhbət erməni hərbçisinin işğal olunmuş Azərbaycan ərazisindəki ölümündən gedirsə, bu ermənin hansı səbəbdən və kim tərəfindən öldürülməsi diqqətlə araşdırılmalıdır. Belə alınır ki, həmsədrlər işğal olunmuş Azərbaycan ərazilərindəki Ermənistan ordusundakı ölümlərin genezisini, mənşəyini araşdırmaqda maraqlı deyil və bununla da münaqişənin davamında maraqlı olduqlarını nümayiş etdirirlər".



UZAĞI, APRELƏ QƏDƏR...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan maraqlarını "şəxsi rifah" naminə xaricə satan "millətçilər" iqtidar hakimiyyətinin siyasətini "yarıtmaz" hesab edir, "parlaq" planlarının tətbiqinə çalışırlar. Hakimiyyətin gücü və hakimiyyətə inamın əsas səbəbi malik olduğu potensial deyil, bu potensialdan məqsədyönlü və rasional şəkildə istifadə etməyi bacaran siyasətdədir. Xalq etimadına səbəb olan amil də, məhz budur. Çəkişmələrə, qarışıqlıq yaratmağa adaptasiya olunmuş radikallar ölkə daxilində çaxnaşma yaratmaq amallarına sadiq qalaraq, hər vəchlə sabitsizlik imici formalaşdırmağa çalışırlar. Onlar mövcud sabitliyi ələ keçirməyə, onu dağıtmağa, mənfur niyyətlərini reallaşdırmağa, o qədər aludə olublar ki, artıq sosial şəbəkələrdə belə nə etdiklərinin və hansı addım atdıqlarının fərqində deyillər.***

### 8 milyon 603 min 364 manat pul...

Digər tərəfdən, hələ 2010-cu il qədər AXCP sıralarından parlament iclaslarında iştirak etdiyi üçün qovulan "tarixçiyə" - Cəmil Həsənliyə 2013-cü ildə nədənsə birdən-birə "Milli Şura"nın məhəbbəti yarandı. O, açıq-aşkar Əli Kərimli adlı xainə hazırda da kuklalıq etməklə məşğuldur. Beləliklə, xalqın iqtidarı olan hakimiyyəti nüfuzdan salmaq, fəaliyyətinə xələl gətirmək məqsədilə radikal müxalifətin xarici dəstəkləyənləri, beynəlxalq arenada Azərbaycanın imicinin artmasını qəbul etməyən qüvvələr tərəfindən uydurulmuş, müxalifət tərəfindən "kozır" kimi saxlanan saxta və reallığa zidd informasiyalar seçkiqabağı daha da şişirdilir. Ancaq nədənsə, AXCP sədr Əli Kərimlinin çirkli pulları, bu günə qədər çıxardığı oyunbazlıqları haqqında səhih məlumat verilmir. Məsələn, Əli Kərimlinin özü və qohumları təkcə 2012-ci il oktyabrın 30-dan 2013-cü il iyunun 13-dək olan müddətdə banklardan 8 milyon 603 min 364 manat pul çıxarıblar. Ondan sonrakı dövrə qədər isə həmin rəqəm 10 milyonu ötüb!

Xatırlatmaq olar ki, bu fakt, hətta AXCP üzvləri arasında da çaxnaşma yaratmışdı. "Milli Şura" daxilində parçalanma, ayrılma istəkləri getdikcə artmaqdadır. Hər kəs bu pulların mənbəyi ilə maraqlanır. Sədrlik AXCP üzvünə nə qədər pul "qazandırıb" ki?

### Bu qədər dəlilin qarşısında aşkar həyasızlıq

Bütün bunların yerinə öz saxtakarlıqlarını ört-basdır etməyə çalışan Ə.Kərimli və ətrafı utanmadan-qızarmadan "xalqa xidmətdən" dəm vururlar. Xalqa xidmət onlar üçün xalq mülkünü mənimsəmək, iqtisadiyyatı çökdürmək, xalqı səfil vəziyyətə (necə ki, 1991-1993-cü illərdə baş vermişdi) salmaqdan, başqalarını günahlandırıb, "yarıtmaz" hesab etməkdən ibarətdir. Bu qədər dəlilin qarşısında aşkar həyasızlıq, arsızlıq nümayiş etdirən, heç nə olmamış kimi hərəkət edən kəslər daha nə qədər özünü biabır və rüsvay edəcəklər? Bunu, əlbəttə ki, yaxın zaman göstərəcək. Heç sosial şəbəkələrdəki trolları da, AXCP sədrinə kömək olmayacaq. İnanmırsa, bir azacıq da səbir etsin, uzağı aprelə, daha dəqiqi, həmin ayın 11-nə qədər...

# "Dağıdıcı müxalif ünsürlərin xaricdən maliyyə asılılığı var"

**- Tahir bəy, bəzi müxalifət partiyaları seçkiləri boykot etdikləri iddiası ilə çıxış edirlər. Sizcə, onlar bu addımları ilə nə demək istəyirlər?**

- Müxalifətin konstruktiv qanadı "Milli Şura"nın AXCP-nin boykot qərarından və Müsavatın seçkilərdə iştirak etməmək qərarından narazı qalıblar. Onların məğlubiyyətlərinin də əsas səbəbi anormal qərarlara malik olmalarıdır. Hazırkı məqamda Müsavat partiyasında çox ciddi qarşıdurma var. Ona görə də, Müsavat indi, özlərinin dili ilə desək, qucaqlama siyasəti yeridir. Guya müxalifət birləşsin və birgə hərəkət etsin. Ümumiyyətlə, bütövlükdə, müxalifət birləşsə belə yenə də qeyri-səmimi olduqlarına görə, heç vaxt nə isə bir uğur qazana bilməyəcəklər. Çünki artıq demək olar ki, bu təşkilatlar yox səviyyəsindədir. O cümlədən də, xalqın da müxalifətə heç bir dəstəyi yoxdur.



**Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir**

**- C.Həsənli bu həftə Avropaya səfərə hazırlaşır. Sizcə, bu səfərin müəmmalı olacağını demək olarmı?**

- Hər dəfə ölkədə hansısa bir seçki keçirilən zaman müxalifət nümayəndələri xaricə səfərlər etməyə başlayırlar. Onlara sual vermək lazımdır ki, tez-tez xaricə bu cür səfərlər edirsiniz və qarşılığında nə əldə edirsiniz? Artıq xarici havadarlar yaxşı başa düşürlər ki, bunlara dəstək vermək mümkün deyil. Vaxtilə xarici qüvvələr məkrli niyyətlərini həyata keçirmək üçün müxalifətdən bir alət kimi istifadə edirdi. Amma nə xarici qüvvələr, nə də ki, müxalifət öz niyyətlərinə çata bilmirdilər və hər dəfə də, məğlub olurdular. İndi isə, xarici qüvvələr görürlər ki, artıq müxalifət əhəmiyyətsiz quruma çevrilib. Ona görə də, onlardan imtina etməyə başlayıblar. Bu isə, müxalifəti ciddi surətdə narahat edir. Çünki dağıdıcı müxalif ünsürlərin xaricdən maliyyə asılılığı var. C.Həsənli xaricə səfər etməklə, üzləşdikləri problemləri aradan qaldırmağa ümid bəsləyir.

**- Demək olarmı, müxalifətçilərin ağır böhranla üzləşmələrinin əsas səbəbi xarici qüvvələrdən asılı olamalarıdır?**

- Ümumiyyətlə, bu gün radikal müxalifət düşərgəsində olan qüvvələr bir-biri ilə səmimi deyillər. Bunun da səbəbi müxalifət partiya sədrlərinin öz şəxsi maraqlarını partiya maraqlarından üstün tutmalarıdır. Yəni bu gün onlar üçün partiya maraqları yox, məhz özlərinin şəxsi ambisiyaları ön plandadır. Belə olan halda da, müxalifət məhvə sürüklənir. Yəqin ki, seçkidən sonra AXCP və Müsavat kimi partiyaların mövcudluğuna son qoyulacaq.

***GÜLYANƏ***

# Sabiq müsavatçıdan ağır ittihamlar

*Elbəyi Həsənli: "Bunu kor da görür ki, Arif Hacılı Müsavat partiyasının başqanı olandan bu təşkilat xaraba qalıb"*

Bu günlərdə İsveçrədə yaşayan sabiq müsavatçı və jurnalist Elbəyi Həsənli Müsavat rəhbərliyi haqqında növbəti dəfə tənqidi fikirlər səsləndirib. Hazırkı Müsavat başqanı Arif Hacılı və İsa Qəmbəri "siyasi kor"lar adlandıran E.Həsənli bildirib ki, bu iki şəxsin məqsədi partiyanı məhv etmək idi, bunu da yaxşı bacardılar. O, son vaxtlar partiyada baş verən istefalar barədə fikirlərini sosial şəbəkədə təhlil edərkən yazıb. O cümlədən, təsadüfi deyil ki, Müsavatın əksər funksionerləri partiyanı tərk etməkdə davam edirlər. Əvvəlcə vəzifələrini, onun ardınca isə, bütövlükdə, siyasi mənsubiyyətlərini tərk edənlər buna sübutdur. Məhz bu baxımdan, sabiq müsavatçı qeyd edir ki, bundan sonra Müsavatın bir partiya kimi özünə gəlməsi, sadəcə, xülyadır: "Eks-başqan İsa Qəmbər yeni başqanın başına sığal çəkib dedi: Arif Hacılı özünün təcrübəli və peşəkar siyasətçi



olduğunu bir daha sübut elədi. Elə bununla da, Müsavatın evi yıxıldı. Bu "peşəkar" və "təcrübəli" siyasətçinin sayəsində Müsavat darmadağın olub. Bunu kor da görür ki, A.Hacılı Müsavat partiyasının başqanı olandan bu təşkilat xaraba qalıb. Xalq arasında olan nüfuzunun ən azı yarısını itirib. Ana müxalifət statusu ilə biabırçı şəkildə vidalaşıb. Partiyanın az qala bütün elitası təşkilatı tərk edib. Onların da yerinə siyasətdən bixəbər və xalq arasında elə bir nüfuzu olmayan şəxslər təyin olunub. Bəli, kor bunu görür. Amma İ.Qəmbər görmür".

**"Papağınızı qabağınıza qoyub fikirləşin, görün A.Hacılı başqan olandan bəri Müsavatda partiyalıq qalıbmı?"**

E.Həsənlinin bu fikirləri müsavatçıların da ona qarşı ittihamlarına səbəb olub. Belə ki, onlar iddia edirlər ki, E.Həsənli Müsavat rəhbərliyini məqsədli şəkildə "vurur". Hətta onu müxalifəti satmaqda və Müsavata xəyanət etməkdə suçlayanlar da var. Fəqət, E.Həsənlinin onlara cavabı daha sərt və amansız olub: "Yaddaşı zəif olanlara xatırladım ki, Müsavat partiyasının qurultayından sonra keçmiş və indiki başqanı dəfələrlə, bəzən ən sərt formada tənqid etmişəm. Həmin tənqidi fikirlərim Azərbaycan mətbuatında dəfələrlə tirajlanıb. Ağlınızı başınıza yığın, papağınızı qabağınıza qoyub fikirləşin və görün A.Hacılı başqan olandan bəri Müsavatda partiyalıq qalıbmı?"

Ancaq A.Haıclı qruplaşmasının üzvü, Müsavat partiyasının mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlı Elbəyi Həsənlinin fikirlərinə münasibət bildirib: "O bilir ki, nəyə görə Müsavat rəhbərliyini tənqid edir. Elbəyi asan yol seçib, gedib oturub İsveçrədə, havayı maaş alır və heç bir iş görmür. Bekarçılıqdan bizi tənqid eləyir. Dərdi-səri yoxdur. A.Hacılı ilə onun köhnə ədavəti var". Məhz bu açıqlaması ilə G.Aslanlı etiraf edib ki, əslində, Müsavat partiyasında qalmaqallar yaşanır və A.Hacılı ilə ədavətdə olanlar çoxdur. Xüsusilə, seçkilərə qatılmamaq məsələsində fikirlərin haçalanması da deyilənləri sübut edir. Necə deyərlər, bu xəmir hələ çox su aparacaq...

***Rövşən NURƏDDİNOĞLU***

## Hesabat: Dünyada hər altı uşaqdan biri münaqişə zonasında yaşayır

Dünyada münaqişə zonalarında böyüyən uşaqların sayı getdikcə artmaqdadır. Bu barədə məlumat beynəlxalq "Save the Children" qeyri-hökumət təşkilatının hesabatında yer alıb. AZƏRTAC xəbər verir ki, hesabatda Yer kürəsində təxminən 357 milyon uşağın, yəni, hər altı uşaqdan birinin böhran və müharibə regionlarında yaşadığı qeyd olunub. Bu isə ötən əsrin 90-cı illərinin əvvəli ilə müqayisədə 75 faiz artım deməkdir.

Hesabatı təqdim edən təşkilatın rəhbəri, Danimarka hökumətinin keçmiş rəhbəri Helle Torning-Şmidt bildirib ki, dünyanın bir sıra regionlarında ölüm, işgəncə, cinsi zorakılıqla qarşılaşmalı olan uşaqların evləri, məktəb və oyun sahələri bu gün döyüş meydanlarına çevrilib. Hesabatda qeyd edilən uşaqların tam yarısı xüsusilə ağır münaqişə zonalarında (Suriya, Əfqanıstan, Somali) yaşayırlar. Fiziki və cinsi zorakılıqla yanaşı, uşaqların əsgər kimi müharibələrə səfərbər edilməsi də ən acınacaqlı problemlər sırasındadır.

2010-cu ildən bəri münaqişələrdə ölən və ya yaralanan uşaqların sayında 300 faiz artım müşahidə olunub. Bununla yanaşı, döyüşlərin daha çox əhalinin sıx yaşadığı ərazilərdə baş verməsi uşaqlara humanitar yardımların göstərilməsini də çətinləşdirib. Həmçinin silahlı münaqişələrin müddətinin əvvəlki dövrlərlə müqayisədə uzanması vəziyyətin daha da dramatikləşməsinə gətirib çıxarır.



## Sezen Aksu da yaman mütrübmüş

**İLHAM**

***İnsanda ağıl, dərrakə, düşünüb fikirləşdikdən sonra addım atmaq və bu kimi insana başucalığı gətirən digər məsələlər yaxşı şeydir. Vay o günə ki, bu sadaladıqlarımın heç biri insanda olmaya, həm də iş başında otura və mövqe-məzhəb sahibi ola. Onda təsəvvür edin ki, nələr baş verir? İnanın səmimiyyətimə, sözlərimi və fikirlərimi qəribçiliyə salmayın. Bugünkü şou əhlinin böyük əksəriyyətində məlhəmə qatmaq və ya məsləhətə don geyindirmək üçün zərrə qədər də ağıl yoxdur. Sübutum var. Dəfələrlə Azərbaycanın ünlü, adlarını bərkgedən şou əhlinin nümayəndələri qoyan mütrüblər sosial şəbəkələrdə biabırçı şəkillərini paylaşıblar, çəkdirdikləri kliplərdə Şərq adət-ənənəsinə zidd olan görüntülər nümayiş etdiriblər.***

Yataq səhnələrini, sevgi foto-sessiyalarını, içib ağıllarını itirdiklərindən axmaq-axmaq fikirlər səsləndirmələrini çox eşidib və ya görmüşük. Dərinə gedəndə və araşdırma aparanda, məlum olur ki, bu mütrüblərin hamısı eyni düşüncənin və ağılın sahibidirlər. Sanki bir sortdan yetişirlər. O günlər saytlardan birində oxuyuram ki, Türkiyənin ən məşhur müğənni və bəstəkarlarından biri olan Sezen Aksu İstanbulda yeni istifadəyə verilmiş "Zorlu Center PSM" Mərkəzində səhnəyə çıxıb, çox utancverici fikirlər səsləndirib. Deyib ki, ermənilərə canım qurban. Sonra da utanıb-çəkinmədən, bəyan edib ki, bütün ermənilər mənim qohumumdur.

Təbii ki, bu mütrübün sözlərindən sonra şübhəli məqamlar üzə çıxır. Düşünürsən ki, ya bu mütrüb içib, ya da ki, o zəhrimardan dadıb. Çünki bütün tarix boyu türklərə və türk dünyasına pisliklər və yamanlıqlar etmiş ermənilərə bu qədər qucaq açmaq şübhəli məsələlər ortaya çıxarır. Ancaq Sezen Aksu iddia edib ki, o, adını çəkdiyim zəhrimarlardan dadmayıb, sadəcə, 10-15 il bundan əvvəl Onno adlı erməni sevgilisi olub.

Adamın tükləri biz-biz olur. Köpək oğlunun ermənisi Sezen mütrübün hafizəsində, düşüncəsində, bir sözlə, həyatında necə silinməz izlər qoyubsa, üstündən 10-15 il keçsə də, hələ də unudulmayıb. Hərdən də fikirləşirsən ki, görəsən, kos-koca Türkiyədə 5-6 bığıburma kişi tapılmadımı ki, Onnonu Sezenin beynindən silə bilsin. Məmnuniyyətlə, bizdə o ağır yükü üzərinə götürən tapılar. Amma... nə isə... deyirəm ki, bu erməni təəssübkeşi Sezen Onnonun xiffətini çəkir, türklər o yana dursun, Azərbaycana gələndə, dəridən-qabıqdan çıxan insanlar peyda olub. Bir qədər əvvəl də, Bakıya gəldiyi zaman Azərbaycanın işbaz mütrübləri ilə yanaşı, adını çəkməyə həya etdiyim bir deputat Sezen məxluqun başına fır-fıra kimi fırlanırdı. Yedi-içdi, oynamağı da yaddan çıxarmadı. Deyilənə görə, gedəndə də, sumkasında 1 milyon dollar aparıb. Bizim kənddə belələrinə yaltaq yox, yalaq deyirlər. Yaltaqdan söz düşmüşkən, o günlər də azərbaycanlı bir mütrüb - Zemfira İbrahim Tatlısəsin qarşısında diz çöküb, ağı deyib. Yalvarıb, göz yaşı töküb. Sağlamlığı üçün qoç qurban deyib. Beləsinə nə deyim? Adama deyən lazımdır, qarşısında diz çökmək istəyirsənsə, Azərbaycanın dünyaca məşhur sənətkar müğənniləri Alim Qasımovun, Mələkxanım Əyyubovanın, Elnarə Abdullayevanın, Zabit Nəbizadənin, Zeynəb Xanlarovanın qarşısında diz çök. Azərbaycanda qazandığın pullar hesabına qoç qurban kəsmək istəyirsənsə, ölkəmizdə kəs-payla! Bu yerdə deyiblər e, görəsən, ağıl paylananda, filankəs hardaymış?

TƏRS BAXIŞ

# AXCP- "REAL" hərəkatı qarşıdurması son həddə

## İlqar Məmmədovun təşkilatı Əli Kərimlini siyasi səhnədən siləcək?

Son günlər "Respublikaçı Alternativ Hərəkatı" və AXCP arasında sosial şəbəkə daxilində kəskin qarşıdurmalar müşahidə olunmaqdadır. Belə ki, "REAL"-ın icraçı katibi Natiq Cəfərli növbəti dəfə müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, "azadlıq" və digər ənənəvi şüarlarını "devalvasiyaya uğratmaqda" ittiham edib. O, ənənəvi düşərgə təmsilçilərini köhnəpərəstlikdə, düzgün siyasət aparmamaqda və xarici qüvvələrdən sifariş almaqda ittiham edib. Xüsusilə, sosial şəbəkələrdə cəbhəçi trolların qeyri-sivil və mədəniyyətdən uzaq "siyasi mübarizələrini" qabardan realçı bildirib ki, AXCP sədri Əli Kərimlinin söyüş qrupu və "like" (bəyənmə) edənlər qismində fəaliyyət göstərən adamları heç bir ailə tərbiyəsi görməyən ünsürlərdirlər. Lakin bunun yerinə, Kərimlinin sosial şəbəkə nökərləri N.Cəfərliyə qarşı hücuma keçiblər.

## Natiq Cəfərli və Azər Qasımlı ikilikdə Əli Kərimliyə qarşı...

Bu arada bəzi sosial şəbəkə istifadəçiləri, iddia edirlər ki, guya Ə.Kərimli seçkilər ərəfəsində "REAL"-la birgə mitinqlər keçirmək təklifini irəli sürüb və qarşı tərəf bunun doğru çıxış yolu olmadığını billdirərək, həmin təklifi rədd edib. Əslində, təklif olmasa da, digər "REAL" rəsmisi Azər Qasımlı bu mövzu barədə müəyyən fikirlərini sərt formada qeyd edib. SİTAT: "Milli Şura" tərəfindən "REAL"-la aksiyada birgə iştirakla bağlı hər hansı müraciət və ya təklif etməyib və edilə bilsəydi də, təşkilat olaraq, o səviyyəsiz qurumun mitinqində iştirak etməyəcəkdik. Dünən qədər bizə qarşı təhqirli sözlər deyən xarici qüvvələrin nökəri olan Ə.Kərimli kimilər indi keçirmək istədikləri mitinqə dəvət edir. Bu da təəccüblü deyil. Çünki Ə.Kərimli, satqınçılıq nümunəsi olduğu kimi, həm də həyasızlığın son həddidir".

A.Qasımlı onu da bildirib ki, Ə.Kərimlinin məqsədi "REAL"-ı parçalamaqdan ibarətdir. Beləliklə, görünən həm də budur ki, yalnız "REAL"-la deyil, habelə digər müxalifət təmsilçiləri ilə əsl düşmənçilik münasibəti yaradan Ə.Kərimlinin belə bir şəraitdə mitinqə getməyi rüsvayçılıqla başa çatacaq.

## Müsavatçı: "Şər-böhtan, təhqir maşınına çevrilən AXCP və "Milli Şura"nı kim dəstəkləyər ki!?"

Əbəs yerə deyil ki, bu barədə yalnız "REAL"-çılar deyil, eyni zamanda, müsavatçılar da danışırlar. Məsələn, Eldar Osmanlı adlı müsavatçı öz sosial şəbəkəsində yazır ki, heç bir siyasi təşkilat bu adamı və təmsil etdiyi qurumu dəstəkləmir: "Şər-böhtan, təhqir maşınına çevrilən AXCP və "Milli Şura"nı kim dəstəkləyər ki!? Belə bir şəraitdə mitinqə gedən və ölkədə "ana müxalifət" olduğunu göstərmək üçün onun dediklərini yerinə yetirməyən, yersiz, məntiqsiz tələblərinə boyun əyməyən hər kəsə şər atan Ə.Kərimlinin rəhbəri olduğu partiya da, "Milli Şura" da iflasın astanasındadır".

## AMİP funksioneri: "Müxalifətçilik bu cür olmur"

AMİP funksioneri Əli Orucov da bənzər fikirlə çıxış edərək deyir ki, bütün seçkilər dövründə xalqdan heç bir halda, dəstək ala bilməyən Ə.Kərimlini qıcıqlandıran odur ki, heç kim onun yanında deyil və onun özü-özünü xalqdan təcrid edib: "Necə deyərlər, xalq şərin, böhtanın yanında deyil və olmayacaq. Müxalifətçilik bu cür olmur, xəyanətlə, tez-tez cinah dəyişməklə də olmur. Heç şübhəsiz ki, sosial şəbəkələrdə mənasız çağırışlar etməklə insanlarda dərin ikrah hissi yaradan Ə.Kərimlinin yanında partiyanın barmaqla sayılacaq qədər üzvlərindən başqa kimsə qalmayacaq".

Bütün bunlar, bir daha sübut edir ki, AXCP sədrinin "son mənzili", yəni siyasi ölümü, məhz keçiriləcək prezident seçkiləridir. Hətta seçkilərdən kənar qalsa belə, onun tutduğu yanlış yol artıq indidən aqibətini müəyyənləşdirmiş olub.

**R.RƏSULOV**

# Miqrasiya Xidmətinin DTX ilə birgə əməliyyatı: 26 əcnəbi saxlanılıb

12 və 14 fevral 2018-ci il tarixlərdə Dövlət Miqrasiya Xidmətinin Dövlət Təhlükəsizlik Xidməti ilə birgə qanunsuz miqrasiyaya qarşı keçirdiyi tədbirlər zamanı 24 nəfər Hindistan, 1 nəfər Pakistan və 1 nəfər Türkmənistan vətəndaşı olmaqla, ümumilikdə 26 nəfər əcnəbi saxlanılıb. Miqrasiya Xidmətindən SİA-ya verilən məlumata görə, araşdırma zamanı 17 nəfər Hindistan, 1 nəfər Pakistan və 1 nəfər Türkmənistan vətəndaşının ölkə ərazisində olma və yaşama qaydalarını pozduğu, 7 nəfər Hindistan vətəndaşının ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə əməl etmədiyi məlum olub. Eyni zamanda Hindistanın Qucarat əyalətində fəaliyyət göstərən Mehbub adlı şəxsin Azərbaycandakı əlaqələndiricisi Nirav Dineshkumar Patel vasitəsilə Hindistan vətəndaşlarının ölkəyə göndərilməsini və burada yerləşdirilməsini təşkil etdiyi müəyyən edilib. Qeyd olunan şəxslər Hindistan vətəndaşlarını aldadaraq yüksək aylıq əmək haqqı olan iş yeri vəd etməklə, Azərbaycan Respublikasında leqallaşacaqlarına inandırıb və dələduzluq yolu ilə müəyyən məbləğdə pul vəsaitlərini mənimsəyiblər. N.D.Patel aldadılaraq ölkə ərazisinə gətirilən Hindistan vətəndaşlarını Bakı şəhərinin Yasamal və Nəsimi rayonları ərazisindəki müxtəlif ünvanlarda yerləşdirib, özü isə məqsədli şəkildə Gürcüstan istiqamətində Azərbaycan Respublikasını tərk edib.

Görülmüş qabaqlayıcı tədbirlər nəticəsində qeyd olunan şəxslər tərəfindən Hindistan vətəndaşlarının Azərbaycan Respublikasına gətirilərək qanunsuz miqrantlara çevrilməsi və neqativ miqrasiya kanalının təşkil edilməsi cəhdinin qarşısı alınıb. Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı mübarizə çərçivəsində tədbirlər davam etdirilir.

# Aksiyalar da, sosial şəbəkə də müxalifətə müsbət nəticə vəd etmir

*Müxalifət düşərgəsinin seçki ilində, yaxud seçki ilə əlaqədar fəaliyyəti də bu vaxta qədərki anormal və qanunsuz fəaliyyətinə bənzəyir. Radikallar yenə də qəbul olunmayan və normalara uyğun gəlməyən taktika ilə seçilirlər. Seçki Məcəlləsinə, onun müvafiq qanunlarına məhəl qoymayanlar təkcə seçki prosesinə deyil, dövlət qanunvericiliyinə də hörmətsizlik etmiş olurlar.*



Ümumiyyətlə, dünya praktikasına nəzər salsaq, görərik ki, bütün nüfuzlu dövlətlərdə istər hakimiyyət nümayəndələri, istərsə də sivil müxalifət qurumları seçki prosesi ilə əlaqədar qəbul olunmuş hüquqi aktlara, qanunvericiliyə hörmətlə yanaşır və onun tələblərinə əməl edir. Yəni seçki qanunvericiliyində nəzərdə tiutulmuş bütün qanun pozuntularına maksimum dərəcədə yol verilmir. Əksinə, seçki prosesinə aid bütün qanunlara hörmətlə yanaşaraq, qanunun aliliyini hər bir məqamdan üstün hesab edir.

"Təşviqat" sözünü və onun mənasını araşdırarkən, müxtəlif ölkələr və mədəniyyətlər onilliklər üçün xarakterik olan çoxsaylı anlayışlarla qarşılaşırıq. "Təşviqat" sözü latın dilindəki "advocare" sözündən götürülmüşdür və sözün əsl mənasında, "dəstək olmağa çağırmaq" deməkdir. Təşviqat nöqteyi-nəzərlərə, sosial münasibətlərə, idarə edən və idarə olunan qruplar arasındakı münasibətlərə təsir göstərən, eyni zamanda, vətəndaş cəmiyyətini möhkəmləndirən və demokratik məkan formalaşdıran sosial dəyişikliklər prosesidir. Təşviqat fəaliyyəti üçün səylərin koordinasiyası, strateji düşüncə, informasiya, kommunikasiya, təbliğat və mobilizasiya tələb olunur.

## Müxalifət Seçki Məcəlləsinin müvafiq maddələrinin əksinə gedərək qanunları bilərəkdən pozur

Azərbaycanda fəaliyyət göstərən müxalifət qurumları qarşı tərəfin qanuni tələblərini qanunsuzluq adlandırmağa cəhd etməklə yanaşı, qanunun tələblərinə məhəl qoymayaraq, qanun pozuntusuna yol verir və Seçki Məcəlləsində nəzərdə tutulmuş müvafiq maddələrin əksinə gedərək, Azərbaycan respublikası qanunlarını bilərəkdən pozurlar. Belə ki, Seçki Məcəlləsinin təbliğat və təşviqatla bağlı müvafiq maddəsinin əksinə olaraq, hələ də, təbliğat işlərini davam etdirir və aqressiv təşviqatla məşğul olurlar. Halbuki qanunvericiliyin tələblərinə görə, seçki gününə 24 gün qalmışa qədər təbliğat-təşviqat kampaniyalarının aparılması qanuna ziddir.

Azərbaycanda təbliğat-təşviqat məsələləri Seçki Məcəlləsinin müvafiq maddələri ilə tənzimlənir və yeri gəlmişkən, qeyd edək ki, keçiriləcək prezident seçkilərində iştirak edən namizədlər üçün təşviqat kampaniyasının vaxtı məlum olub. Mərkəzi Seçki Komissiyasının təsdiqlədiyi Təqvim Planına əsasən, seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlayacaq və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılacaq. Daha dəqiq desək, Təqvim Planına uyğun olaraq, martın 19-da başlayacaq təşviqat kampaniyası aprelin 10-u səhər saat 10:00-da başa çatacaq.

## Radikallar təbliğat dedikdə, meydanlara toplaşmağı və virtual fəaliyyəti başa düşürlər

Baxmayaraq ki, martın 19-na bir aydan çox vaxt qalıb, təbliğat və təşviqatla məşğul olmaq qanuna ziddir, müxalifət düşərgəsi öz təbliğatını davam etdirir. Təbii ki, radikallar təbliğat dedikdə, yalnız küçə və meydanlara toplaşmağı, ya da sosial şəbəkələrdə virtual fəaliyyət göstərməyi başa düşürlər. Yəni müxalifətçilərin təşviqatı da elə fəaliyyətləri kimi, yalnız iki istiqamətdə həyata keçirilir. Sosial şəbəkələrin dırnaqarası qəhrəmanlarına çevrilənlər, indi də aksiyalara start verməyə hazırlaşır və bununla da, növbəti qanunsuzluğa yol vermək niyyətindədirlər. Qeyd etdiyimiz kimi, nəzərdə tutulmuş və elan edilmiş vaxtadək keçirilən tədbirlər, təşviqat tədbirləri qanuna ziddir və aksiyalar özü də bu qanunsuz tədbirlər silsiləsindəndir. Prezident seçkilərində təşviqat müddəti başlayana qədər hansısa namizədin və onun tərəfdarlarının təşviqatla məşğul olmaları yolverilməzdir. Bəzən kimsə hansısa namizədi tənqid edir və nəzərə almaq lazımdır ki, bunun özü də təşviqat sayılır. Məhz buna görə də, dağıdıcı müxalifətin nəzərdə tutulmuş aksiyalara başlaması qanun pozuntusu kimi dəyərləndirilir.

Əslində, təbliğat kampaniyasının dayandırılmaması müxalifət partiyalarına heç sərf etməz. Belə ki, hakim partiya, yaxud onun namizədi, Cənab Prezident İlham Əliyevin təşviqat aparmaq imkanları müxalifətin imkanlarından daha çoxdur. Lakin qanunu və qanunvericiliyi əsas götürən, qanunun aliliyi prinsiplərinə hörmətlə yanaşan hökumətimiz konstitusiyanın müvafiq maddələrini əsas tutaraq, təşviqatın dayandırılmasını məqbul hesab edir və dövlət seçkilərin keçiriləcəyi günə 24 gün qalmışa qədər təşviqat kampaniyalarının aparılmamasına zəmanət verir.

Seçki dövründə, təbliğat aparmaqla bağlı MSK-nın öz ənənəvi təlimatları var və uzun illərdir, yəni hər seçki prosesində buna əməl olunur. Lakin bütün təbəqələrə sirayət edən sosial şəbəkələrin seçkilərlə bağlı davranış məsələləri sahəsində qanunvericiliklə çərçivə müəyyən olunmayıb və qanunvericilikdə bunun tənzimlənməsi məsələsi yoxdur. Bu məsələnin tənzimlənməsi, yaxud tənzimlənməməsi istiqamətdə müzakirələrin aprılması da mümkündür və əslində, ictimai institutlar buna münasibət bildirməlidirlər.

Hər bir halda, radikallar nəzərə almalıdır ki, nə qədər təbliğat və təşviqat aparmalı olsalar da, yenə ictimai dəstəyə nail ola bilməyəcəklər. İstər aksiyaları olsun, istərsə də sosial şəbəkələrdəki cənfəşənlıqları olsun, bunlar heç bir nəticə vəd etmir. Azərbaycan xalqı bu radikalların simasına çoxdan bələddir və onlara heç zaman dəstək ola bilməz.

**İnam HACIYEV**

# İnsan hüquqları sistemində hüquq-mühafizə orqanları rəhbərlərinin vəzifələri

***Ümum-Avropa dəyərlərinə insan hüquq və azadlıqları, liberal-demokratik dəyərlər və qanunun aliliyi daxildir. Onların hamısı İnsan Hüquqlarının Avropa Konvensiyasının preambulasında öz əksini tapıb və Konvensiyanın müddəaları ilə, habelə, bu müqavilə əsasında təsis edilən orqanların rəy və qərarları ilə təsbit olunmuşdur. Onlar bir-biri ilə bağlıdır və bu fakt, həmçinin, Konvensiyada və onun orqanlarının qərarlarında qeyd edilir.***

İnsan hüquqlarına əməl olunması tələbi qanunçuluğa hörmət məqsədilə ifadə olunur. Qanunçuluğa hörmət müvafiq insan hüquqlarına əməl olunması vasitəsilə möhkəmləndirilir. Bu isə, öz növbəsində, demokratiyanın mühüm ünsürü sayılır.

Polis işi ümum-Avropa dəyərlərini qorumağın, möhkəmləndirməyin və inkişaf etdirməyin üsullarından biridir. Amma bunun səmərəli olması üçün polisin kifayət qədər insan hüquqlarına, qanunçuluğa və demokratiya prinsiplərinə hörmətlə yanaşması olduqca vacibdir. Əks halda, həmin ümum-Avropa dəyərləri təhlükəyə məruz qala bilər.

Cinayətkarlığın qarşısının alınması və aşkara çıxarılması, ictimai qayda-qanunun qorunması və bərpa edilməsi bədbəxtçiliyə düçar olan adamlara vaxtında yardım göstərilməsi kimi polis funksiyaları bütün dünyada, o cümlədən, Avropada polis qurumlarının əksəriyyəti üçün ümumidir. İnsan Hüquqlarının Avropa Konvensiyası və onun orqanları polis funksiyalarının yerinə yetirilməsi üçün standartlar işləyib-hazırlamışlar. Onun əsasını insan hüquqlarının, demokratiya və qanunçuluğu müdafiə etmək prinsipləri təşkil edir. Məsələn, cinayətin açılmasından və ədalətli məhkəmə hüququndan danışarkən, İnsan Hüquqlarının Avropa Məhkəməsi bəyan etmişdir ki, o, mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin vacibliyini etiraf etməklə yanaşı, müasir demokratik cəmiyyətdə xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, məhkəmənin təcili keçirilməsi ədalətli məhkəmə icrası hüququna qurban verilə bilməz. İctimai qayda-qanunun qorunmasına və dinc yığıncaq hüququna gəlincə, İnsan Hüquqlarının Avropa Məhkəməsi demokratik cəmiyyətdə bu hüququn vacibliyini qeyd edir və bəyan edir ki, zor tətbiq etməklə əks nümayişin və ya zor tətbiq etmək niyyətində olan ekstremistlərin hərəkətlərinin təhlükə yaradacağını əsas gətirərək, bu hüququ ləğv etmək olmaz. Məhkəmə bu hüququ inkişaf etdirir və qeyd olunur ki, dinc yığıncaq keçirmək hüququna əks nümayişlərdən müdafiə hüququ da daxildir. Çünki yalnız belə olduqda, sosial qruplar ziddiyyətli problemlərə öz rəyini nümayiş etdirə bilər. Məhkəmə bəyan etmişdir ki, nümayişçiləri qorumağın müxtəlif üsullarını seçərkən nəzərə almaq lazımdır ki, fıziki təzyiqə nəzarət üçün xüsusi vasitələrin, habelə, qarışıqlığın yatırılması üçün cəza tədbirinin tətbiqi məhduddur. Çünki xüsusi vasitələrin tətbiq olunması özlüyündə qarşı tərəfi zor tətbiq etməyə təhrik edə bilər. Məhkəmənin bu cür bəyanatları ictimai qayda-qanunun qorunması və bərpa edilməsi üçün üsulları, strategiya və taktikanın seçilməsində standartlara toxunur.

Bütövlükdə, bütün dünyada polisin funksiyaları, bir qayda olaraq, eynidir. Bundan başqa polis, adətən, ierarxik və intizam quruluşuna malikdir. Ona görə də, təəccüblü deyil ki, dünyanın müxtəlif ölkələrində polis quruluşlarında eyni mənzərənin şahidi oluruq. Bundan başqa, polis işinin beynəlxalq xarakterinin genişlənməsi bu ümumi cəhətlərin möhkəmlənməsinə yardım edir.

Məsələn, dünyanın müxtəlif ölkələrinin polisləri bəzən BMT-nin sülhməramlı qüvvələri ilə birlikdə işləyirlər, ölkələr arasında ikitərəfli müqavilələr və beynəlxalq təşkilatların çoxtərəfli müqavilələri müxtəlif ölkələrin polislərinə informasiya və təcrübə mübadiləsi aparmağa imkan verir. Müxtəlif ölkələrin polis qurumları beynəlxalq cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq etməyə üstünlük verirlər. Avropada bu meyillər bir sıra tarixi, siyasi və iqtisadi səbəblər hesabına daha da güclənir. Bu isə, ümum-Avropa dəyərlərindən insan hüquqlarından, demokratiya və qanunçuluqdan danışmağa imkan verir.

Polis qurumlarına gəlincə, onlar üçün bu dəyərləri möhkəmləndirmək olduqca vacibdir. Çünki həmin qurumların xarakterində insan hüquqları və qanunçuluqla ziddiyyət təşkil edən ünsürlər var. Bu, xüsusilə, gündəlik cinayətkarlığa qarşı mübarizə aparan bölmələrə aiddir. Məsələn, həmin polis işçilərinin gündəlik işdə qarşılaşdığı çətinliklər və onların şəxsi təsəvvürləri qanunlara, qaydalara və təlimatlara qarşı pis rəy formalaşdıra bilər. Çünki onlara elə gəlir ki, həmin qanunlar polisə mane olur, cinayətkarlara isə kömək edir.

Amma bu cür halların polis işinin beynəlxalq xarakter alması hesabına güclənməsini nəzərə alaraq, Avropa Şurası və digər beynəlxalq təşkilatlar hökmən polis qurumlarında insan hüquqlarını və qanunçuluğu qoruyan dəyərləri dəstəkləməlidirlər. Qanun pozuntusu və polisin qəddarlığı Avropanın bəzi ölkələrində, artıq müşahidə olunmuş və yaxşı nəticələr verməyibdir. Bundan başqa, bu, heç də polisin işinin səmərəliliyinə kömək etmir, əksinə, onu zəiflədir.

Rəhbər polis heyətinin tərkibinə aşağıdakı kateqoriyalar daxildir:

**1)** aşağı heyətin komanda dəstəsi. Sıravi polis nəfərlərinin işinə birbaşa ca-vabdehlik daşıdığına görə, onun rolu çox böyükdür və polislərin dünyagörüşünə və davranışına birbaşa təsir göstərə bilir;

**2)** orta dəstənin rəhbər heyəti rəhbərliyin qərarlarının əməli işdə yerinə yetirilməsi üçün polisi istiqamətləndirənlərlə həmin işi həyata keçirənlər arasında vasitəçi rolunu oynayır;

**3)** ali komanda heyəti polisin işinin əsas istiqamətini və strategiyasını müəyyənləşdirir, habelə, praktikada onların gerçəkləşdirilməsi səlahiyyətlərinə malikdir.

Bütün rəhbər işçilər nəzərə almalıdırlar ki, polis nəfərləri vəzifələrini səmərəli yerinə yetirsinlər və öz səlahiyyətlərini qanuna və humanizm prinsiplərinə uyğun olaraq, həyata keçirsinlər. İndiki dövrdə bir sıra Avropa ölkələrinin siyasi, ictimai və iqtisadi quruluşlarında dramatik dəyişikliklər nəzərə çarpır. Həmin ölkələr keçid dövrünü yaşayır. Belə bir mürəkkəb vaxtda dövlət və polis orqanlarının üzərinə böyük məsuliyyət düşür. Bununla yanaşı, digər dövlətlər də yeni siyasi, sosial və iqtisadi qüvvələrin meydana çıxmasına reaksiya verməlidir. Həmin ölkələrin polis qurumları büdcə xərclərinin azalmasına baxmayaraq, öz iş səviyyəsini yüksəltməlidir.

Zəmanənin gərdişi bütün Avropa ölkələri əhalisinin cinayətkarlıqdan və ictimai qarışıqlıqdan səmərəli müdafiəsini tələb edir. İnformasiyaya malik, savadlı və nüfuzlu adamların əksəriyyəti qəti şəkildə polisdən qanunçuluq və humanizm prinsiplərinə əməl etmələrini gözləyir. İndi hər bir ölkə polisdən səmərəli və nümunəvi davranış tələb etməkdə haqlıdır. Polisin işi yaxşılaşmalıdır. Bu isə, o deməkdir ki, seçim və kadr hazırlığı, onların işlərinin qiymətləndirilməsi üsulları, tərtibolunma prinsipləri, nizam-intizam ölçüləri, habelə, qanun və cəmiyyət qarşısında hesabat prinsipləri təkmilləşməlidir. Polis rəhbərlərinin rastlaşdığı dəyişikliklərin miqyası və xüsusiyyəti bunlardan ibarətdir. Yeni şəraitdə polisin işini daha səmərəli etmək üçün dəyişikliklərə və inkişafa uyğun gələn strateji planlaşdırmanı həyata keçirmək vacibdir. Bu strateji planlaşdırmanın gedişində işlənib-hazırlanan fəaliyyət proqramı bütün sahələrdə peşəkarlıq prinsiplərinə əsaslanmalıdır, həmçinin, insan hüquqlarına, demokratiya və qanunçuluğa hörmətlə yanaşılmalıdır. İşin peşəkarlığını digər polis qurumlarının iş üsulları ilə müqayisədə və strateji planlaşdırma prosesinin mövcud yollarını nəzərdən keçirərkən, qiymətləndirmək mümkündür. Ayrı-ayrı ölkələrin qanunvericiliyində əks olunan insan hüquqları, demokratiya və qanunçulıq prinsipləri, bu prosesdə həlledici məqamlardan hesab olunur. Amma bu prosesin dərinləşməsi insan hüquqlarına dair əsas sənədlərdə, habelə, beynəlxalq müqavilələr əsasında təsis olunan orqanların qərar və bəyannamələrində təsbit edilən beynəlxalq standartlar hesabına mümkündür.

Bu gün polisin peşə hazırlığını yüksəltmək, onun əməkdaşlarının davranış səviyyəsini istənilən səviyyəyə çatdırmaq, peşəkarlığa yardım edə biləcək ab-hava yaratmaq vacibdir. Ən başlıcası, adamlarla gündəlik ünsiyyətdə sıravi polis nəfərlərinin davranış səviyyəsini yaxşılaşdırmaq lazımdır. Yalnız bu halda, real dəyişikliklərdən söhbət açmaq olar. Ali, orta və aşağı dəstənin polis rəhbərləri bu proseslərdə müəyyən rol oynayırlar. Bu rol strateji planlaşdırmada xüsusi əhəmiyyət kəsb edir. Rəhbər polis işçilərinin böyük əksəriyyəti başa düşür ki, polis qurumuna rəhbərlik çox mürəkkəb prosesdir və onun quruluşunu dəyişmək heç də asan deyil. İnsan hüquqlarına münasibətdə polis rəhbərlərinin başlıca vəzifəsi öz işində polis nəfərlərinin insan hüquqlarına hörmət etməsini və onu qorumasını izləməkdən ibarətdir. Bu vəzifənin yerinə yetirilməsinin ilk addımları sadədir. Nəzərdən qaçırmamaq lazımdır ki, bütün polis nəfərləri öz səlahiyyətlərini və bu səlahiyyətlərin hüdudlarını bilsinlər, habelə, həmin səlahiyyətləri qanunun və humanizmin tələblərinə uyğun olaraq, həyata keçirsinlər. Bunun üçün hazırlıq keçmək, təlimat vermək və kadrların işini qiymətləndirmək vacibdir. Kimin işi bu tələblərə cavab verirsə, o, etiraf olunmalı və mükafatlandırılmalıdır. Kim bu səviyyəyə çatmayıbsa, onunla müvafiq iş aparılmalı, ona məsləhətlər verilməli, habelə, öyrənməlidir. Əgər davranış kodeksində cinayətkarlığa və ya qanun pozuntusuna yol verilibsə, hüquqi və inzibati ölçülərə əl atmaq olar. Amma bunlar ilk addımlardır. İnsan hüquqlarının müdafıəsi və ona hörmətlə yanaşılmasının peşəkar polis işinin əsas ünsürlərinə çevrilməsi üçün polislər arasında insan hüquqlarına hörmət ab-havası yaratmaq lazımdır. Bu isə, öz növbəsində, uzunmüddətli və ardıcıl iş aparıılmasını tələb edir. Qanunların yerinə yetirilməsini təmin etməyə cavab verən şəxslər tərəfindən qanunun aliliyinə hörmətlə yanaşmaq, habelə, bu hüquqları müdafiə etmək üçün məsuliyyət daşıyan şəxslər tərəfindən insan hüquqlarına mütləq hörmət etmək bütün Avropa xalqları üçün ümumi olan sivilizasiya dəyərlərinin çiçəklənməsi üçün vacibdir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## ŞOK: Toyuq yumurtası bu xəstəliyə yoluxma riski daşıyır!



Toyuq yumurtası bütün zamanlar və millətlər üçün ən populyar qidalardandır. Olduqca ləzzətli dada malik yumurta sağlamlıq üçün faydalıdır, ucuz başa gəlir və bir çox yeməklərin tərkib hissəsinə daxildir. Lakin bunlarla yanaşı toyuq yumurtası həm də təhlükə mənbəyidir, belə ki, salmonelyoz xəstəliyinə yoluxma riski daşıyır. Bəs bu xəstəliyə yoluxmaqdan necə qorunmaq olar?

Salmonelyoz - salmonella bakteriyaları tərəfindən törədilən kəskin bağırsaq infeksiyasıdır. Yoluxma adətən infeksiyaya yoluxmuş heyvanlardan qida məhsulları (ət və ət məhsulları, süd, yumurta) yolu ilə baş verir. Salmonella bakteriyalarına yoluxmanın müxtəlif yolları olsa da, ən çox rastlanan səbəb məhz toyuq yumurtalarıdır. Buna görə də bu problemlə qarşılaşmamaq üçün bəzi qaydaları bilmək və əməl etmək önəmlidir.

İlk əvvəl bilmək lazımdır ki, infeksiya daşıyıcısı yumurtanın özü deyil, yumurtlayan toyuqdur. Quş fermaları, quşçuluq təsərrüfatlarında quşların böyük sıxlığı, qeyri-təmiz saxlama şərtləri və keyfiyyətsiz yem bu xəstəliyin geniş yayılma səbəblərindəndir. Ancaq hətta xəstə toyuqdan olan təzə yumurtalarda belə salmonella olmur. Bakteriyalar ancaq yumurtanın qabığında olur, xüsusilə də onun üzərində toyuq peyininin izləri görünürsə. Beləliklə də yoluxma adətən yumurtanın tərkibindən deyil, yumurtanın qabığı ilə təmas nəticəsində baş verir.

Amerika Birləşmiş Ştatlarında bu problemin sadə həlli tapılıb: hələ 1970-ci illərin ortalarından quşçuluq fermalarında yumurtalar yuyulur və xüsusi zərərsizləşdirmə emal prosedurundan keçirilir. Lakin bu, tamamilə əks effekt verə bilər. Son araşdırmaların nəticələrinə əsasən, Amerika quşçuluq fermalarında yumurtaların təmizlənməsi zamanı yumurtanın qabığında olan xüsusi qoruyucu təbəqə pozulur. Halbuki bu təbəqə təbiət tərəfindən müxtəlif infeksiyalardan qoruyan təbii baryer kimi yaranıb. Nəticədə amerikan yumurtaları həmişə çox təmiz və gözəl görünüşə malikdir, lakin daha az təhlükəsizdirlər.

Bəs belə olduğu halda salmonelyozdan necə qorunmaq olar? Yumurtanın alınması, saxlanılması və hazırlanması zamanı hansı qaydalara əməl etmək lazımdır?

**1.** Yumurta aldıqda böyük fermalarda deyil, kiçik fermer təsərrüfatlarında istehsal olunan yumurtaları almağa çalışın.

**2.** Yumurta seçərkən onun təmiz və qabığının zədəsiz olmasına diqqət edin.

**3.** Yumurtanı soyuducuda xüsusi rəfdə saxlayın və digər məhsullarla təmas etməməsinə diqqət edin.

**4.** Yumurtanın saxlanması üçün olan qabları mümkün olduğu qədər tez-tez yuyun.

**5.** İstifadə etməmişdən əvvəl (ancaq bundan tez yox) yumurtanı isti suda sabunla yaxşıca yumaq lazımdır.

**6.** Hazırlanma prosesi zamanı yumurtanın bütün qabıqlarını yığmaq və atmaq, onunla təmasda olmuş bütün alətləri (bıçaq, kəsici taxta, işlək səth) isə yaxşıca yumaq lazımdır.

**7.** Əllərinizi mütləq yuyun!

Bu sadə qaydalar sizə salmonelyoz xəstəliyinə yoluxma riskini azaltmağa kömək edəcək. Ancaq təhlükəsizliyinizə 100% əmin olmaq istəyirsinizsə, o zaman bilməlisiniz ki, salmonella mikrobları soyuğa davamlıdır, ancaq termik emala qarşı həssasdırlar. Bu səbəbdən də yumurtanı bişirərkən sarısının çiy qalmamasına diqqət etmək, qaynamağa başlayan andan 15-20 dəqiqədən az olmayaraq bişirmək, qayğanaq hazırlayırsınızsa, hər iki tərəfini qızartmaq lazımdır. Bu qaydaları gözardı etməmək məsləhət görülür. Çünki olduqca xoşagəlməz və geniş yayılmış infeksiya olan salmonelyoza hər kəs yoluxa bilər. Xüsusilə də qida rejiminin pozulduğu ilin isti aylarında və tətil zamanı daha diqqətli olmaq tövsiyə olunur.

## ELAN

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığın vətəndaşı Frederick Kilnerın Azərbaycan Respublikasının ərazisində MYİ 0371103 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Kamran Quliyev “Neftçi”nin yeni prezidenti təyin edilib



“Neftçi”nin yeni prezidentinin adına dünən aydınlıq gətirilib. SİA-nın məlumatına görə, yaxın saatlarda klubun təsisçilərinin iclası keçirilib. İclasda “ağ-qaralar”ın yeni prezidentinin adı açıqlanıb. Bu vəzifəyə “Sumqayıt”dan istefa verən Kamran Quliyev təyin edilib. Artıq “Neftçi”nin rəsmi saytı da K.Quliyevin prezident təyin edildiyini yazıb.

## UEFA Avropa Liqasının 1/16 final mərhələsinin növbəti oyunları keçirilib




Futbol üzrə UEFA Avropa Liqasında onaltıdabir final mərhələsi çərçivəsində növbəti görüşlər keçirilib. Bu mərhələnin ilk oyunları çərçivəsində daha 15 görüş baş tutub. Cari mövsümdə “Qarabağ”ın Çempionlar Liqasında rəqibləri olmuş Danimarkanın “Kopenhagen” klubu ilə Madridin “Atletiko” komandasının dueli qarşılıqlı idman mübarizəsi şəraitində keçib. Matçın sonunda sevinən tərəf Madrid təmsilçiləri olublar - 4:1.

Londonun “Arsenal” klubu səfərdə İsveçin “Ostersund” kollektivinə qalib gəlib - 3:0. “Ludoqorets”in qonağı olan “Milan” da rəqibin qapısından üç cavabsız top keçirib. Dortmund “Borussiya”sı isə öz meydanında “Atalanta”nı son dəqiqələrdə vurulan qolla məğlub edə bilib - 3:2 . Günün mərkəzi görüşlərindən sayılan “Lion” və “Vilyarreal” klublarının qarşılaşmasında qalib tərəf meydan sahibləri olublar - 3:1.

## Azərbaycan atleti Polşada gümüş medal qazanıb

Qış mövsümünün prestijli yarışlarından sayılan atletika üzrə Dünya Qış Turunun 5-ci mərhələsi Polşanın Torun şəhərində keçirilib. AZƏRTAC xəbər verir ki, yarışda üçtəkanla tullanma növündə Azərbaycanı Aleksis Copello təmsil edib. Madrid mərhələsinin 4-cüsü olan Aleksis Torunda 16,89 nəticə göstərərək yarışın gümüş mükafatçısı olub.

## Arsen Venger UEFA-nın qaydalarından narazıdır



İngiltərənin “Arsenal” futbol klubunun baş məşqçisi Arsen Venger UEFA-nın avrokuboklarda bir futbolçuya eyni mövsümdə iki fərqli klubda oynamağa icazə verilməməsi ilə bağlı mövcud qaydalarına etiraz edib. AZƏRTAC xəbər verir ki, buna səbəb “Arsenal”ın yeni transfer etdiyi Pyer-Emerik Obameyanqın xidmətindən UEFA Avropa Liqasında istifadə edə bilməməsidir.

“Bütün klubların bu qaydanın ləğvinə tərəfdar olduqlarını bilirəm. Onun heç bir mənası yoxdur”, - deyə fransalı mütəxəssis etirazını bildirib. UEFA-nın reqlamenti klublara imkan verir ki, qış fasiləsindən sonra yalnız bir yeni futbolçunun adını avrokuboklarda iştirak ərizəsinə əlavə etsin. Amma həmin futbolçu eyni mövsümdə qitə turnirlərində mübarizə aparan başqa klubun heyətində meydana çıxmamalıdır. Obameyanq “Borussia Dortmund” klubunun heyətində UEFA Çempionlar Liqasında çıxış etsə də, Almaniya təmsilçisi hazırda Avropa Liqasının pley-off mərhələsində mübarizə aparır.

## Neymar ildə 50 milyon avroya DÇ-2022-nin siması olacaq




Fransanın “PSJ” klubunun sahibləri forvard Neymarı qətiyyətlə komandada saxlamaq niyyətindədirlər. “El Confidencial” portalı yazır ki, Paris klubunun rəhbərliyi Qətərdə keçiriləcək DÇ-2022-nin simalarından biri olmaq barədə Neymarla razılıq əldə edib. Bu roluna görə 26 yaşlı oyunçu ildə 50 milyon avro alacaq. “PSJ”nin qətərli sahibləri hələlik bu sənədi açıqlamayıblar. Qeyd edək ki, braziliyalının bu klubdakı maaşı 38 milyon avroya çatır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**